# HƏFTƏ İÇİ

MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

www.hafta.az

№ 33 (3546) Cümə axşamı / 12-18 sentyabr 2024-cü il Qiymәti 40 qәpik


# Sülh daha çox İrəvana lazımdır



***Ermənistan baş naziri Nikol Paşinyan sülh danışıqları ilə bağlı yenidən Azərbaycana qarşı əsassız ittihamlar irəli sürüb. Qeyd edək ki, İrəvan sülh sazişi layihəsində tərəflər arasında razılaşdırılmış məqamlar üzrə razılığın əldə olunduğunu əsas gətirərək, sənədin tezliklə imzalanmasını təklif edir. Razılaşdırılmamış məqamlar isə sənəddən çıxarılaraq onlarla bağlı müzakirələrin davam etdirilməsini istəyir. Paşinyanın da bəyanatlarından aydın olur ki, Ermənistan sülh yolunda ən böyük maneə sayılan Azərbaycana qarşı ərazi iddialarından əl çəkmək fikrində deyil. Belə ki, baş nazir dünən parlamentdəki çıxışında ölkə Konstitusiyasında Azərbaycana qarşı iddiaların əks olunmadığını bəyan edib. Müstəqillik aktına istinadı isə özünəməxsus şəkildə əsaslandırıb.***

Bununla belə, Paşinyan Azərbaycan Konstitusiyasında Ermənistana qarşı ərazi iddialarının olduğu tezisini təkrarlayıb. İrəvanın bu mövqeyinə rəsmi Bakının cavabı özünü çox gözlətməyib: ”Ermənistan baş nazirinin 10 sentyabr tarixində “Yerevan dialoqu” adlı forumda çıxışı zamanı həm “sülh sazişi” layihəsi, həm də ümumilikdə 10 noyabr tarixli üçtərəfli bəyanatla bağlı səsləndirdiyi iddialar reallıqların açıq-aşkar təhrif olunmasıdır”. Bu barədə Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadənin Ermənistan baş nazirinin 10 sentyabr tarixində “Yerevan dialoqu” adlı forumda çıxışı zamanı Azərbaycana qarşı səsləndirdiyi fikirlərə dair şərhində bildirilib.

Qeyd edilib ki, Ermənistan rəsmilərinin “sülh sazişi” layihəsini razılaşdırılmamış müddəalar çıxarılmaqla imzalanması çağırışı, bununla ikitərəfli münasibətlərdə mövcud problemlərin həllini növbəti mərhələyə saxlamaq cəhdləri qəbuledilməzdir. ”Bir daha xatırladırıq ki, Ermənistan tərəfinin “sülh sazişi” layihəsini hansı formada imzalamaq niyyətindən asılı olmayaraq, Azərbaycanla Ermənistan arasında real və davamlı sülh müqaviləsinin imzalanması üçün əsas şərt, başda “Ermənistan və Dağlıq Qarabağın birləşməsi”nə çağıran Ermənistanın Müstəqillik Aktına açıq şəkildə istinad edən Ermənistan Konstitusiyası olmaqla, bu ölkənin çoxsaylı hüquqi və siyasi sənədlərində təsbit edilmiş Azərbaycana qarşı davam edən ərazi iddialarına son qoyulmasıdır.

Guya Azərbaycanın Konstitusiya aktında Ermənistana qarşı ərazi iddialarının olduğu barədə iddialara gəldikdə bir daha qeyd edək ki, Azərbaycan Konstitusiyası ilə Ermənistan Konstitusiyası arasında paralellik və bərabərlik yaratmaq cəhdi heç bir nəticə verməyəcək. Ermənistan Konstitusiyasından fərqli olaraq, Azərbaycan Konstitusiyasında istinad olunan 1991-ci il Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı və 1918-ci il İstiqlal Bəyannaməsində Ermənistana qarşı heç bir ərazi iddiası mövcud deyil.

Ermənistan tərəfinin sülh müqaviləsi layihəsində mövcud olan “heç bir tərəf sülh sazişi çərçivəsində öz öhdəliklərini yerinə yetirməməsi ilə əlaqədar öz daxili qanunvericiliyinə istinad edə bilməz” müddəasını qeyd edərək, bu ölkənin Konstitusiyasında mövcud olan ərazi iddiasının zərərsiz olduğunu bildirməsi də tamamilə əsassızdır. Bir daha qeyd edirik, heç bir beynəlxalq sazişin Konstitusiyadan üstün olmadığı hər kəsə yaxşı məlum olan faktdır. Almatı bəyannaməsi çərçivəsində Azərbaycan və Ermənistanın bir-birinin ərazi bütövlüyünü tanıdığı barədə baş nazirin açıqlamasına gəldikdə, baş nazirin təmsil etdiyi ölkənin məhz bu öhdəliyi kobud şəkildə pozaraq Azərbaycan ərazilərini işğal altında saxladığı faktını xatırlatmaq istərdik.

Kommunikasiyaların açılması məsələsində də Ermənistan baş naziri növbəti dəfə üzərinə götürdüyü öhdəlikləri yanlış şərh edib. Üçtərəfli bəyanatın 9-cu bəndində Ermənistanın hansı öhdəliklərinin olduğu, nəqliyyat əlaqəsi üzrə nəzarətin necə təşkil olunacağı açıq-aydın yazılıb.

Ümumilikdə, üçtərəfli bəyanat imzalanandan sonra öhdəliklərinə zidd olaraq 2023-cü ilin sentyabr ayınadək Azərbaycan ərazilərində hərbi fəaliyyətini davam etdirmiş və erməni silahlı qüvvələrini Azərbaycan ərazilərindən çıxarmayan Ermənistan tərəfinin guya qaçqın və məcburi köçkünlərin geri qayıtmasına maneçilik törədildiyini, yerli ermənilərə qarşı etnik təmizləmə həyata keçirildiyini, hərbi əsirlərin qaytarılmadığını iddia etməsi reallıqların təhrif olunmasıdır. Bunula yanaşı, 2023-cü il anti-terror tədbirlərindən sonra erməniəsilli şəxslərin könüllü əsasda Azərbaycanı tərk edərək Ermənistana və digər ölkələrə köçməsinin etnik təmizləmə kimi qələmə verilməsi növbəti böhtandır. Hərbi əsirlərin qaytarılması məsələsinə gəldikdə, hərbi cinayətkarların və separatçı xunta rejiminin nümayəndələrinin azad edilməsi barədə Azərbaycan hər hansı bir öhdəliyə malik deyil. Azərbaycan indiyə qədər humanizm prinsipinə sadiq qalaraq hərbi əsirlərin hər birini Ermənistana təhvil verib. Azərbaycan tərəfindən qaytarıldıqdan sonra hərbi əsirlərin Ermənistan dövləti tərəfindən kütləvi surətdə həbslərə və təqiblərə məruz qalmaları bu dövlətin öz vətəndaşlarına “qayğısı” kontekstində xüsusi təəccüb doğurub. Müxtəlif platformalardan istifadə etməklə ölkəmizə qarşı aqressiv böhtan xarakterli ritorikanı davam etdirən Ermənistan tərəfini sülh perspektivlərinə xələl gətirən açıqlamalardan əl çəkməyə çağırırıq”, - XİN sözçüsü bəyan edib.

> “
>
> *Regionda sülh və sabitliyə nail olmaq üçün müvafiq sənədlərin müddəalarını hazırlayanların səylərinə hörmət etmək lazımdır*
>
> *Paşinyanın verdiyi son təklif isə sülh sazişinin yekunlaşdırılması və imzalanması prosesini ləngidir*

Paşinyanın məlum bəyanatı və Rusiyaya qarşı ittihamlarına Moskvanın cavabı da artıq məlumdur:

“Cənubi Qafqaz regionunda sülh və sabitliyə nail olmaq üçün müvafiq sənədlərin müddəalarını hazırlayanların səylərinə hörmət etmək lazımdır”. Bunu Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova Ermənistan baş naziri Nikol Paşinyanın 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanatın müddəalarını təhrif etdiyi son bəyanatlara münasibət bildirərkən deyib.

O, Paşinyanı Cənubi Qafqazda “həyatları bahasına sülh uğrunda mübarizə aparanlara” hörmət etməyə çağırıb: “Sənədlər sehrli çubuqla deyil, öz töhfəsini verən insanlar tərəfindən reallaşdırılır. Yazılanların reallığa çevrilməsi üçün insanlar təkcə vaxtını deyil, bəzən həyatlarını da qurban verirlər. Ona görə də mənə elə gəlir ki, sənədlərdən sitat gətirərkən belə yüngül, məsuliyyətsiz yanaşmaq olmaz”. Zaxarova həmçinin vurğulayıb ki, regionda sülh və sabitliyə nail olmaq üçün müvafiq sənədlərin müddəalarını hazırlayanların səylərinə hörmət etmək lazımdır. “Ən vacibi budur ki, məsuliyyətli siyasətçilər mürəkkəb tarixi proses nəticəsində hazırlanmış sənədlərə qarşı məsuliyyətsiz davranmamalıdırlar”, - deyə Rusiya XİN sözçüsü vurğulayıb.

▸▸ Səh. 2

MÜSAHİB

## Azərbaycan bu təxribatlara hazırdır



**Arzu Nağıyev,**
siyasi şərhçi

***Son günlərdə Azərbaycan və Ermənistan arasında sülh dabışıqları ilə bağlı məsələlər yenidən aktuallaşıb. Erməni baş nazir Nikol Paşinyan və xarici işlər naziri Ararat Mirzoyanın ziddiyyətli açıqlamaları məsələyə yenidən baxmaq və təhlil etmək zərurəti yaradır. Suallarımızı VII çağırış parlament seçkilərinin qalib namizədi, siyasi şərhçi Arzu Nağıyev cavablandırır:***

*Ermənistan sülhə imza atmağa məcburdur, amma vaxtı uzatmaqla prosesdən qazanclı çıxmağa çalışacaq*

▸▸ Səh. 5

AKTUAL

## Tehranın dəhliz qorxusu



■ İran bu sənədin yerinə yetirilməsinə qarşı yalnız sözlə, ritorika ilə çıxa bilər

■ Tehran çalışır ki, dəhliz Ermənistandan yox, İrandan keçsin

■ İran Zəngəzur dəhlizinin açılmasında maraqlı olmalıdır

▸▸ Səh. 3

GÜNÜN FOTOSU...




**Kahramanmaraşda Heydər Əliyev adına məktəbin açılış mərasimi**

GÜNÜN SİTATI

“ *Krımın Ukraynaya qaytarılması beynəlxalq hüququn tələbidir* ”



**Rəcəb Tayyib Ərdoğan,**
Türkiyə Prezidenti

KARİKATURA



**Qərbin bölgəmizdəki “sülh” formulu**

## Gələn ildən “yaşıl subsidiya”lar tətbiq olunacaq

**Mircavid Həsənov,**
aqrar sahə üzrə ekspert

Bir sahəyə 10 ton su lazımdırsa, ənənəvi selləmə üsulla suvarılmada həmin sahəyə təxminən 100 ton su buraxılır.

▸▸ Səh. 6

STATİSTİKA



**■ 2024-cü ilin yanvar-avqust ayları ərzində İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin xəttilə dövlət büdcəsinə 11 milyard 227 milyon 501,6 min manat vergi daxil olub.**

Qeyri-neft-qaz sektorunda daxilolmalar 7 milyard 744,2 milyon manat təşkil edib, əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə bu sektordan vergi daxilolmaları 878,6 milyon manat və ya 12,8 faiz çox olub. Ödənilən vergilərin 69 faizi qeyri-neft-qaz sektorunun, 31 faizi isə neft-qaz sektorunun payına düşüb.



▸▸ Səh. 7

## Hərbçilərin ipoteka kreditlərinə dövlət dəstəyi

## PREZİDENTİN İŞ GÜNÜ

### Sərəncam



**Prezident İlham Əliyev cəzaçəkmə müəssisələrində peşə təhsilinin keyfiyyətinin yüksəldilməsi ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb. Sərəncamda deyilir:**

"Cəzaçəkmə müəssisələrində keyfiyyətli peşə təhsilinin həyata keçirilməsi cəzaçəkmə müəssisələrindən azadlığa buraxılmış şəxslərin sosial adaptasiyasının asanlaşdırılması, əmək bazarının ixtisaslı işçi qüvvəsinə tələbatının davamlı təmin olunması baxımından böyük önəm kəsb edir.

Bu baxımdan, cəzaçəkmə müəssisələrində peşə təhsilinin müasir standartlara, əmək bazarında mövcud və gələcəkdə təklif ediləcək iş yerlərinə uyğun qurulması cəza çəkməkdən azad edilmiş şəxslərin sosial mühitə uyğunlaşdırılmasında, hüquq və azadlıqlarının, qanuni mənafelərinin qorunmasında, bu şəxslər tərəfindən törədilə biləcək yeni cinayətlərin və onlara təsir göstərə bilən kriminogen amillərin qarşısının alınmasında vacib rol oynayacaqdır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, cəzaçəkmə müəssisələrində peşə təhsilinin keyfiyyətinin yüksəldilməsi, habelə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyasının təmin edilməsi məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin, Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin və Azərbaycan Respublikası Maliyyə Nazirliyinin təklifləri nəzərə alınmaqla, cəzaçəkmə müəssisələrində peşə təhsilinin keyfiyyətinin yüksəldilməsinə və mövcud infrastrukturun təkmilləşdirilməsinə dair fəaliyyət planının layihəsini altı ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. fəaliyyət planı layihəsinin hazırlanması ilə əlaqədar aidiyyəti dövlət orqanlarının (qurumlarının) nümayəndələrindən ibarət işçi qrupun yaradılmasını təmin etsin;

1.3. fəaliyyət planının layihəsi hazırlanarkən ixtisaslaşmış ekspertlərlə və mütəxəssislərlə səmərəli əməkdaşlığın həyata keçirilməsini, habelə elmi təşkilatların və vətəndaş cəmiyyəti institutlarının cəlb olunmasını təmin etsin;

1.4. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

2. Aidiyyəti dövlət orqanları (qurumları) bu Sərəncamdan irəli gələn məsələlərin həlli üçün zəruri tədbirlər görsünlər".

# Sülh daha çox İrəvana lazımdır

◂ əvvəli 1-ci səhifədə

■ **"Atlas" Araşdırmalar Mərkəzinin sədri, siyasi şərhçi Elxan Şahinoğlu Azərbaycanın sülh sazişini yalnız öz milli təhlükəsizlik maraqlarına cavab verəcəyi halda imzalayacağını vurğulayıb:**

"Nikol Paşinyan bir tərəfdən sülh sazişini imzalamaqda maraqlı olduqlarını, qonşularla münasibətləri normallaşdırmaq istədiklərini deyir, amma digər tərəfdən prosesi bilərəkdən ləngidir. Paşinyan və nazirləri sülh sazişi layihəsində 16 maddədən 13-nün razılaşdırıldığını, Azərbaycan Prezidenti İlham Əliyev isə son İtaliya səfərində sənədin 80%-nin razılaşdırıldığını bildirdi.

Əsas məsələ isə Azərbaycanı narahat edən məqamın aradan qaldırılmamasıdır. Yəni Ermənistan Konstitusiyasında Azərbaycana ərazi iddiasını ehtiva edən bənd çıxarılmalıdır. Ötən əsrin 90-cı illərin əvvəllərində Ermənistan ölkəmizin ərazisini işğal edəndə "Dağlıq Qarabağ"ın oraya birləşdirilməsi ilə bağlı qanunsuz akt qəbul etdilər.

Həmin akt Ermənistan Konstitusiyasının preambulasına bir bənd kimi salındı. Azərbaycan isə həmin bəndin çıxarılmasını istəyir. Əgər Ermənistan ölkəmizin ərazi bütövlüyünü tanıyırsa, bu tələb mütləq şəkildə yerinə yetirilməlidir. Sözügedən tələb yerinə yetirilmədən sülh sazişinin imzalanması çətin, hətta qeyri-mümkündür.

Paşinyan hökuməti üçün isə bunu etmək o qədər də çətin, ağır iş deyil. Həmin bənd Ermənistanın Konstitusiyasına referendum yolu ilə yox, parlamentdə səs çoxluğu ilə əlavə olunub. Hazırda isə parlamentdə çoxluq Paşinyanın partiyasının əlindədir.

O maddə çıxarılan kimi əsas əngəl aradan qaldırılacaq və sülh sazişi imzalanacaq. Ona görə də əsas bu məsələni həll etmək lazımdır. Paşinyanın verdiyi son təklif isə sülh sazişinin yekunlaşdırılması və imzalanması prosesini ləngidir". Göründüyü kimi, İrəvan hələ də sülh sazişini imzalamaq istəmir. Paşinyan siyasi iradə nümayiş etdirməkdə zəiflik göstərir, Qərb dairələrindən aldığı tapşırıq əsasında sülh prosesini mümkün qədər uzatmaq üçün əsassız ittihamlar irəli sürür. Bir fakt da məlumdur ki, rəsmi Bakı üçün artıq ən böyük problem olan ərazi bütövlüyü və suverenliyinin təmini həllini tapıb. İndi sülh daha çox İrəvana lazımdır.

✍ *Ləman Əliyeva*

HƏFTƏ İÇİ
MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET
Təsisçi və
baş redaktor:
Sevinc Seyidova
Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb (lisenziya 022303), "Həftə içi"nin kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində çap olunur.
Müəllifin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.
Qəzet çərşənbə axşamı, cümə axşamı və şənbə günləri nəşr edilir.
Qəzet 22 iyul 1998-ci ildən çıxır. Tiraj -2000
"Həftə içi" nəşriyyat MMC, VÖEN 1600386721, "KAPITALBANK" ASC
1 saylı Səbail filialı Kod: 200059 VÖEN: 9900003611
M/h: AZ37NABZ01350100000000001944
S.W.İ.F.T.Bik AİİBAZ 2X
Ünvan:
Azərbaycan, Bakı şəhəri, H.Zərdabi, 71A mənzil -10
Tel.: - 433-27-63.
E-mail: hafta-ici@rambler.ru,
web-sayt: www.hafta.az

# İtaliya Azərbaycanla strateji əməkdaşlığı gücləndirir

***Prezident İlham Əliyevin İtaliyaya işgüzar səfəri və "Dünya, Avropa və İtaliya haqqında bilgilər" mövzusuna həsr olunmuş Beynəlxalq Çernobbio Forumunda "Yeni geosiyasi şəraitdə Azərbaycanın rolu" sessiyasındakı çıxışı Azərbaycanın Qərblə əməkdaşlığı və beynəlxalq məsələlərdə mövqeyinin dünyaya çatdırılması baxımından mühüm əhəmiyyət daşıyır. Dövlət başçısının nüfuzlu Beynəlxalq Çernobbio Forumuna əsas qonaq qismində dəvət edilməsi isə xüsusi vurğulanmalıdır.***



## Gündəm

■ **Professor Elşad Mirbəşir bildirir ki, Prezident İlham Əliyevin İtaliyaya növbəti səfəri iki ölkə arasında münasibətlərin daha da inkişafı, əməkdaşlığın genişləndirilməsi baxımından çox təsirli oldu.**

Azərbaycanla İtaliya olduqca səmərəli strateji tərəfdaşlıq münasibətlərinə söykənərək əməkdaşlıq etməkdədir. Bu, Azərbaycanın Avropa ilə əlaqələrini genişləndirir.

E.Mirbəşir qeyd edib ki, İtaliya-Azərbaycan əlaqələrinin sıxlığı digər Avropa ölkələri ilə qurulan münasibətlərin keyfiyyətindən fərqlənir. Bu keyfiyyət hər iki dövlət arasında daim möhkəmlənən ticari, iqtisadi əməkdaşlığı inkişaf etdirən əsas amildir.

Professor Azərbaycan-İtaliya əlaqələrinin Ulu Öndər tərəfindən möhkəm təməllər üzərində qoyulduğunu və bu münasibətlərin ölkə başçısı tərəfindən uğurla davam etdirildiyini xüsusilə önə çəkib:

"Ulu öndər Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi dövrdə İtaliya ilə Azərbaycan arasında qurulan dostluq, iqtisadi əlaqələr etibarlı təməllər üzərində quruldu. Ulu Öndərin 1997-ci ildə İtaliyaya səfəri ölkələr arasında olduqca səmərəli əməkdaşlıq münasibətlər sistemini formalaşdırdı. Bu səfərdən sonra Azərbaycanla İtaliya arasında münasibətlər artıq strateji tərəfdaşlıq xarakteri alıb. Artıq 10 ildir ki, Azərbaycanla İtaliya strateji tərəfdaşlar kimi münasibətlərini inkişaf etdirir, əməkdaşlıqlarını genişləndirir".

E.Mirbəşir bildirir ki, İtaliyanın Azərbaycanın milli məsələsi olan ərazi bütövlüyü, keçmiş münaqişə vəziyyətinin aradan qaldırılmasına yönəlik sərgilədiyi mövqe bugünkü münasibətlərə təsir edən əsas amil kimi nəzərdən keçirilməlidir:

"Ölkə Prezidenti Forumda Azərbaycanla İtaliya arasında mövcud olan 16 milyard dollara yaxın ticarət dövriyyəsinin yüksək göstərici olduğunu qeyd edib. Bildirib ki, Azərbaycan İtaliyada enerji təhlükəsizliyinin təmin olunmasında yaxından iştirak etməkdədir. Azərbaycan İtaliya üzərindən Avropa İttifaqına üzv olan ölkələrin də enerji təchizatı baxımından çox ciddi işlər görüb. 3 500 km uzunluğunda olan Cənub Qaz dəhlizi məhz İtaliyaya qədər uzanır və oradan digər Avropa ölkələrinə keçir.

Avropa İttifaqına üzv olan 7 ölkənin enerji təhlükəsizliyinin təmin olunmasında Azərbaycan birbaşa iştirak edir. Ümumilikdə, 10 Avropa ölkəsinin enerji təhlükəsizliyində Azərbaycan birbaşa iştirak etməkdədir. Bu da Azərbaycan-İtaliya əməkdaşlığının hər iki ölkə üçün nə dərəcədə əhəmiyyətli olduğunun göstəricisidir".

E.Mirbəşir hesab edir ki, Prezidentin Çernobbioda dəyirmi masada səsləndirdiyi fikirlər olduqca əhəmiyyətlidir: "Ölkə Prezidenti çıxışlarında vurğuladı ki, Azərbaycan öz ərazi bütövlüyünü təmin etməklə geosiyasi vəziyyəti təkcə regionda deyil, daha geniş coğrafiyada dəyişmiş oldu. O, 44 günlük müharibəyə diqqət çəkməklə bir daha haqlı mövqelərimizi mötəbər tribunadan dünya ictimaiyyətinin diqqətinə çatdırmış oldu. Prezidentin forumda Azərbaycanın Ukrayna-Rusiya müharibəsində vasitəçi ola biləcəyi ilə bağlı səsləndirdiyi fikirlər, "Rusiyaya qarşı sanksiyalara qoşulmaqdan uzağıq" deməsi mühüm mesaj idi".

*"*

*On ildir ki, Azərbaycanla İtaliya strateji tərəfdaşlar kimi münasibətlərini inkişaf etdirir*

*İtaliya Azərbaycan üçün etibarlı tərəfdaşdır*

*Azərbaycan Rusiya və Ukrayna arasında vasitəçi ola bilər*

Professor, eyni zamanda, Prezidentin ölkəmizin həyatında gözlənilən mühüm hadisəyə diqqət çəkdiyini xatırladıb. O, COP29 kimi mötəbər tədbirin Azərbaycanda keçirilməsini ölkəmizə olan etimadın göstəricisi kimi önə çəkib.

"Bu qərarın ötən il qəbul olunmaqla və hazırlıqlara 1 ildən az vaxt qalmasına baxmayaraq, Azərbaycan tədbirə ən yüksək səviyyədə ev sahibliyi edəcək. İtaliya da öz növbəsində COP29-un keçirilməsində Azərbaycana dəstək olmağa hazır olduğu bildirilib".

■ **Politoloq Tofiq Abbasov vurğulayır ki, Prezident İlham Əliyevin İtaliyaya səfəri və əldə olunan uğurlu nəticələr gözlənilən idi.** İtaliya Azərbaycan üçün etibarlı tərəfdaşdır. İki ölkə arasında keçirilən yüksəksəviyyəli görüşlər də göstərir ki, münasibətləri formalaşdıran çox zəngin, sıx proqram var və bu, daim genişlənir.

T.Abbasov Azərbaycanla İtaliya arasında mal dövriyyəsinin həcminin 16 milyarddan çox olmasına diqqət çəkərək bunun son rəqəm olmadığını bildirib:

"Dünya bazarlarında sıxlıq olsa da, bütün fəal aktorlar bir-birini təqib etsələr də, Azərbaycanla İtaliya buna görə təlatüm yaşamır. Bu ölkələr bir-birinə münasibətdə etibarlıdır. Ona görə də asan bir şəkildə imkanlarını götür-qoy edib birgə layihələri həyata keçirmək üçün ortaq nöqtələri tapırlar".

Ekspert bu gün qərəzli, düşmən mövqedə olan mətbuatın Azərbaycan-İtaliya əməkdaşlığını kölgələməyə çalışdığını təəssüflə qeyd edib. O, bəzi xarici mətbuat vasitələrində Azərbaycanın İtaliyadan sərnişin təyyarəsi almasını qıcıqla qarşılamaları faktına diqqət çəkib.

"Az qala dünyaya yayırlar ki, guya Azərbaycan militarist siyasət həyata keçirir, guya Azərbaycan müharibəyə hazırlaşır, təhlükə yaradır. Bu təxribatın arxasında dayanan ermənilər, onların tərəfdarları bununla Hindistan, Yunanıstan, ABŞ, Fransa ilə hərbi əməkdaşlığını kölgədə qoymağa çalışırlar. Əslində, bölgəqə vəziyyəti gərginləşdirmək istəyən, müharibə hazırlıqları görənlər onlar özləridir. İtaliya başa düşür ki, Azərbaycan həqiqətən ona müasir texnologiya üzərində hazırlanmış təyyarələri satmaq üçün adekvat subyektdir. Azərbaycan heç bir dövlətə təhlükə kəsb etmir, heç kimə qarşı ərazi iddiası, aqressiv planları yoxdur. Ermənistan isə özündə bütün təhlükə yaradan komponentləri ehtiva edir. Ermənistan davranışları ilə göstərir ki, Qafqazdakı bu bölgədə demoqrafik resursları azalır.

Öz ölkəsinin böyük arealları bomboşdur. O cümlədən, etnik təmizləmə nəticəsində azərbaycanlıların tərk etdiyi bölgələr də boş qalıb. Ermənistanın demoqrafik resursları, ciddi tərkibi olan inkişaf proqramları yoxdur. Nikol Paşinyan verdiyi müsahibədə qeyd etdi ki, Qarabağdan Ermənistana köçmüş ermənilərin 23 mini ölkəni tərk edib. Bu onu göstərir ki, Ermənistan dövlətinin, hökumətinin rasional inkişaf siyasəti, antiböhran proqramı yoxdur, insanlar kortəbii nəsə bacarırlarsa onunla yaşayırlar".



T.Abbasov Azərbaycanla İtaliyanı aqrosektor, turizm, sənaye sahəsində bir-birimizə bağlayan maraqlara diqqət çəkib. Onun fikrincə hər iki ölkə bir-birini tanıyır, onları birləşdirən tellər çoxdur.

"Bütün dövrlərdə İtaliya Azərbaycanın ərazi bütövlüyünü tanıyıb. İndi həqiqətən də İtaliya cəmiyyətində Azərbaycanı tanıyırlar. Bilirlər ki, Azərbaycan etibarlı tərəfdaşdır".

T.Abbasov bu reallıqlar fonunda bildirib ki, Forumda Prezidentin sağlam mövqedən etdiyi mühüm çıxışı böyük marağa səbəb oldu.

Onun fikrincə, Prezidentin Ukrayna-Rusiya qarşıdurmasında vasitəçilik təklifi, sülhün bərqərar olmasında maraqlı olduğumuzu bir daha bəyan etməsi, enerji təhlükəsizliyi, Rusiya ilə bağlı sanksiya siyasətinə qarşı çıxışı diqqətlə izlənib: "Sanksiyalar iqtisadiyyatı iflic vəziyyətə salır. Hansısa dövlət sanksiyaya məruz qalırsa, bu, digər dövlətlərdə də özünün mənfi təsirini göstərir. Azərbaycan lideri Forumda sanksiya siyasətinə neqativ münasibətini göstərdi. Bir daha mesajlar verildi ki, ABŞ sanksiyalar tətbiq etməklə öz biznesmeləri və digər ölkələr üçün problemlər yaradır". Ekspert hesab edir ki, mötəbər meydan olan Çernobbio Forumunda dünyanın siyasi, intellektual simaları çıxışlar edir, fikir mübadilələri, təhlillər aparırlar. Onun fikrincə, bu Forumda yüsək səviyyədə iştirakımız Azərbaycana dvidendlər gətirən mühüm məqamdır.

T.Abbasov bildirir ki, Prezident Forumda AŞPA ilə münasibətlərə dəqiq, səlist yanaşması oldu. Prezident bildirdi ki, Azərbaycana qarşı soyuq müharibə AŞPA-dan başladı:

"Onlar Azərbaycanın uğurlarını, zəfərimizi normal qarşılaya bilmədilər. Ona görə də Azərbaycana qarşı təpkilər, qərəzli münasibətlər göstərdilər. Əgər AŞPA bizim münasibətləri qırmaq istəyirsə, biz özümüz o addımı birinci atdıq və səsimizi geri çağırdıq. Sonradan onlar özü məhdudlaşdırıcı rejim tətbiq etdilər. Biz heç vaxt AŞPA-nın qapısını döyüb "gəlin yenidən münasibətlərmizi bərpa edək"- deməyəcəyik. İstəyirlərsə, bunu özləri desinlər. Çünki biz münasibətlərin korlanmasında təşəbbüskar olmamışıq. Prosesin iflic vəziyyətə salınmasında AŞPA rəhbərlərinin, Fransa təsirində olan deputatların, təmsilçilərinin rolu olub. Prezidentin bu prosesə yanaşması prinsipial, aydın idi. Bu da Forumda normal qarşılandı və biz bu məsələlərlə bağlı qaranlıq məsələlər hamısı öz həllini tapdı".

■ **Siyasi şərhçi Vüqar Dadaşov vurğulayır ki, İtaliyada keçirilən 50-ci Beynəlxalq Çernobbio Forumunda iştirak edən Azərbaycan Prezidenti İlham Əliyev dünyaya mühüm mesajlar verdi. Azərbaycan liderinin çıxışı dünyanın aparıcı media orqanlarının diqqət mərkəzində oldu.**

V.Dadaşov qeyd edib ki, Azərbaycan Prezidenti İlham Əliyevin forumda Rusiya qazının Ukrayna ərazisindən tranziti ilə bağlı çıxışı maraqla izlənib.

"Blomberq"in məlumatına görə, Moskva və Kiyev İlham Əliyevdən dekabrda əsas razılaşmanın müddətinin başa çatmasından sonra Ukrayna ərazisindən Avropaya qaz tranzitinin asanlaşdırılması xahişi ilə müraciət edib. Həmçinin İlham Əliyev Rusiya ilə Ukrayna arasında münaqişənin həllində vasitəçi kimi çıxışına hazır olduğunu da bildirib".

Ekspert bildirir ki, Rusiya Prezidenti Vladimir Putinin Azərbaycana səfəri və İlham Əliyevlə görüşünün Azərbaycan Prezidenti İlham Əliyevin Beynəlxalq Çernobbio Forumunda iştirakından öncə baş tutması heç də təsadüfi deyildi:

"Rusiya-Ukrayna arasında müharibənin son nəticələri Rusiyanı da danışıqlara meyilli edib. Böyük güclər, xüsusən də ABŞ üzücü müharibənin davam etdirilməsini istəsə də, Rusiya və Ukrayna bu müharibənin dayandırılmasında maraqlı görünür. Azərbaycanın hər iki münaqişə tərəfləri ilə isti münasibəti və Azərbaycan Prezidenti İlham Əliyevin böyük beynəlxalq nüfuzu münaqişə tərəflərinin mövqeyinin yaxınlaşdırılmasına müsbət təsir edə bilər. Bu mesajlar Forumda da öz əksini tapdı".

✍ *Tahirə*

# Tehranın dəhliz qorxusu

***Moskva ilə Tehran arasında Zəngəzur dəhlizi ilə bağlı mübahisə son bir neçə gündə Rusiyanın Azərbaycanın Zəngəzur dəhlizini aktivləşdirmək hüququnu dəstəklədiyini bəyan etməsindən sonra daha da şiddətlənib. Həyata keçiriləcəyi təqdirdə, dəhliz Azərbaycanı Ermənistana, oradan Azərbaycanın Naxçıvan bölgəsinə, oradan da Türkiyəyə birləşdirəcək. Əks istiqamətdə də Türkiyəni Naxçıvan və Azərbaycanla birləşdirəcək. Rusiya əvvəllər dəhlizin aktivləşdirilməsini dəstəkləməsə də, regionun tərkib hissələrinin birləşdirilməsinin özü üçün strateji və təhlükəsizlik atmosferi yaradacağını, dəhlizin NATO üzvü Türkiyəni Xəzər dənizi və Mərkəzi Asiyaya birləşdirəcəyini, bundan sonra siyasi və hərbi inkişaflar yaranacağını düşünüb ehtiyatlanırdı.***



## Aktual

Ukrayna müharibəsi tənliyi dəyişdi. İndi isə məlum məsələ ilə bağlı Tehranla Moskva arasında siyasi gərginlik yaşanmaqdadır. İki regional dövlətin maraqları bu məsələdə toqquşur. Kimin güzəştə gedəcəyi ilə bağlı fikirlər isə birmənalıdır. Zəngəzur dəhlizinə nəzarətlə bağlı Bakı, İrəvan və Moskva arasında hüquqi əhəmiyyətini qoruyub-saxlayan üçtərəfli bəyanat var və orada İranın imzası yoxdur. Həmçinin, Moskva dəhlizə nəzarət məsələsinin bu sənəd əsasında həll olunması qənaətindədir. Sirr deyil ki, Tehran nə qədər etiraz etsə də, indiki məqamda Rusiyaya qarşı tam çıxmaq iqtidarında deyil. Bəs proseslərin növbəti axarı hansı istiqamətdə inkişaf edəcək və Tehranı qıcıqlandıran nələrdir?

■ **Aydın Quliyev, siyasi analitik:**

- İran Zəngəzur dəhlizi anlayışının əleyhinədir. Ümumiyyətlə, Ermənistanla İranın sərhədlərindən Araz boyunca Naxçıvana keçən dəmir yolu və avtomobil yolunun, Azərbaycanın qərb bölgələrini Naxçıvana birləşdirən kommunikasiyaların dəhliz məntiqi ilə qiymətləndirilməsinin əleyhinədir.

İran hesab edir ki, bu ərazidən dəmir və avtomobil yollarının açılması İranın suverenliyinə və geosiyasi reallıqlara mənfi təsir göstərə bilər.

Sual olunur, İran sovet hakimiyyəti dövründə bunu niyə belə dəyərləndirmirdi? Sovet hakimiyyətinin dövründə bu sərhədlər Ermənistan-İran deyil, Sovet İttifaqı-İran sərhədləri adlanırdı və o zaman İranın sovet imperiyasının qarşısında belə şərtlər diktə etməyə gücü, cəsarəti çatmırdı. SSRİ dağıldıqdan sonra İran-Ermənistan sərhədinin xarakteri dəyişdi. İran belə hesab edir ki, bu dəhliz onun qapalı vəziyyətdə olduğu indiki şəraitdə dünyaya və yaxud da kənar aləmə açılmış qapısıdır.




İran Şərqdə Türkmənistan, Əfqanıstan, Pakistanla, Qərbdə İraqla sərhəddir ki, bu ölkələrin heç biri ilə yaxşı münasibətlərdə deyil. Eləcə də, şimalda Türkiyə ilə ciddi rəqabət içindədir. İranın cənubda sərhəd olduğu ərəb ölkələri ilə də münasibətləri bəllidir. Görünən odur ki, İran 4 tərəfdən elan olunmayan blokada şəraitindədir. Belə olduğu şəraitdə İran Ermənistanla sərhədlərinə olduqca həssas yanaşır və hesab edir ki, Ermənistan sərhədlərində hər hansı bir yeniliyin baş verməsi onun kənara çıxışını məhdudlaşdırır. Əslində, dalan ölkə olan Ermənistanla İranın hara çıxacağı bəlli deyil. İran bu bölgədə özünün Ermənistan kimi müttəfiqinin yanında dəyişikliyin baş verməsini qəbul etmir.

İranın niyyəti təkcə Rusiyaya deyil, Naxçıvanla Azərbaycanın qərb bölgələri arasında dəhliz məntiqi ilə yolun açılmasına qarşıdır. İranın Rusiyanın əleyhinə çıxmağa cəsarəti, gücü çatmaz. Ortada imzalanmış 2020-ci il 10 noyabr sənədi var. Bu sənədin 9-cu maddəsinə görə dəhlizin təhlükəsizliyinə nəzarət Rusiyanın sərhəd xidmətinə məxsusdur.

İran bu sənədin yerinə yetirilməsinə qarşı yalnız sözlə, ritorika ilə çıxa bilər. İran sadəcə Zəngəzur dəhlizinin açılması ilə bağlı özünün razılığını baha satmağa çalışır. Onun Rusiya, Türkiyə, Azərbaycandan hansı təmənnaları güdməsi başqa mövzudur. Tehran dəhlizə nəzarətin kimin əlində olmasından asılı olmayaraq bunun əleyhinədir. Çalışır ki, Naxçıvana gedən yol onun ərazisindən keçsin ki, gələcəkdə Şərq-Qərb marşrutu üzərindən daşınacaq mallardan gömrük rüsumu tuta bilsin. Eləcə də Azərbaycanı müəyyən qədər təzyiq altında saxlasın. Ona görə də İranın bu məsələdə mövqeyi ziddiyyətli, məntiqsiz, başadüşülən deyil.

■ **Bəhruz Quliyev, siyasi analitik:**

- İranın Zəngəzur dəhlizi ilə bağlı narahatlığı tam əsassızdır. Bu dəhliz İran üçün heç bir təhlükə törətmir, bu ölkənin Ermənistanla hər hansı əlaqələr qurmasına, layihələr həyata keçirməsinə qətiyyən maneə yaratmır. Zəngəzur dəhlizi 2020-ci il 10 noyabr üçtərəfli Bəyanatının 9-cu bəndinə uyğundur və bu sənəddə İranın adı keçmir, o cümlədən İranın razılıq verib-verməməsinə dair heç bir qeyd yoxdur. Tehranın bu hərəkəti qərəzlidir və buna aydınlıq gətirilməlidir. Nədənsə, İran etirazını yalnız Ermənistana bildirir. İranın Ermənistandakı səfiri Sübhani bu ölkənin Təhlükəsizlik Şurasının sədri Qriqoryanla görüşündə yenidən Zəngəzur dəhlizini özünün "qırmızı xətti" adlandırıb. İranın yeni xarici işlər naziri Seyid Abbas Əraqçi karyerasının ən çətin missiyalarından birini həyata keçirməyə çalışdığını deyib. Bildirib ki, nəinki ölkənin ərazi bütövlüyünü qorumalı, həm də İran üçün həyati əhəmiyyət kəsb edən Ermənistanla sərhədlərin açıq qalmasını təmin etməli olacaq. Əraqçi İranın Türkiyə, Rusiya və Bakı ilə dostluq münasibətlərini pozmaması üçün çalışdığını deyib. İslam İnqilabının rəhbəri isə "anti-İran xarakteri daşıyan Turan dəhlizi" layihəsinə qarşı mövqeyini açıq şəkildə ifadə edib. Əraqçinin söylədikləri məsələnin əsl səbəbini gizlətməyə hesablanıb. Ermənistanla sərhədləri qorumaq adı altında "qırmızı xətt" məsələsini tez-tez xatırlatmaqla İran, əslində, özünün iqtisadi maraqlarını güdür. Çalışır ki, dəhliz Ermənistandan deyil, İrandan keçsin və nəticədə, Tehran Avropanın tətbiq etdiyi sanksiyalardan yayına bilsin. Əgər dəhliz bütövlükdə İrandan keçsə, Tehranın heç bir etirazı olmayacaq, "Turan birliyi" yadına da düşməyəcək. Burada Ermənistan sadəcə tələyə qoyulmuş yemdir.

■ **Azər Hüseynzadə, siyasi ekspert:**

- İran Zəngəzur dəhlizi açılarsa, Ermənistan vasitəsilə dünyaya çıxışının qarşısının alınacağını düşünür. Eyni zamanda, Rusiyanın bu zolağa nəzarət edəcəyi təqdirdə, özünün Cənubi Qafqaza nəzarət etməsinin qarşısının alınacağı qənaətindədir. Rusiya tarixən İranın Cənubi Qafqazda varlığını qəbul etməyən ölkə olub. İranın Rusiyanı Zəngəzurdan uzaq tutmaq istəməsinin səbəblərindən biri budur.

Rusiya keçici olaraq İranın bölgədəki varlığını qəbul edir və təbii ki, gücləndiyi andan bunu istəməyəcək. Bu iki dövlət dəfələrlə bir-biri ilə savaşa girmiş ölkələrdir və bu tarixi yaddaşlarını unutmurlar. Azərbaycan üçün isə əsas məsələ regionun inkişafı naminə bu prosesin uğurla irəliləməsi və Zəngəzur dəhlizinin ölkəmizin suverenliyi, müstəqilliyinin təminatı əsasında açılmasıdır. Dəhlizin açılması bu gün narahatlıq keçirən bütün sərhəd dövlətləri üçün əhəmiyyətli imkanlar yaradacaq. Ona görə də İran Zəngəzur dəhlizinin açılmasında maraqlı olmalıdır. "Zəngəzur dəhlizi sülh müqaviləsi layihəsindən çıxarılsa da, tərəflər arasında yekun müqavilə əldə edilməsindən sonra mümkün görünə bilər. Halbuki sülh müqaviləsinin imzalanmasına mane olan keçilməz digər şərtlər mövcuddur".

> *"İran bu sənədin yerinə yetirilməsinə qarşı yalnız sözlə, ritorika ilə çıxa bilər*
>
> *Tehran çalışır ki, dəhliz Ermənistandan yox, İrandan keçsin*
>
> *İran Zəngəzur dəhlizinin açılmasında maraqlı olmalıdır*

■ **Bunu hafta.az-a siyasi şərhçi Vüqar Dadaşov son günlərdə dəhliz ətrafında cərəyan edən siyasi proseslərə münasibət bildirərkən səsləndirib.** V.Dadaşov bildirir ki, Zəngəzur dəhlizi məsələsinin sülh müqaviləsi layihəsindən çıxarılması fonunda İranın yenidən Zəngəzur dəhlizinə "qırmızı xətt" kimi bəyanatı bu məsələnin gündəmdə olmasını və bunun ətrafında ciddi və qızğın müzakirənin getdiyini göstərir: "Bu məsələdə İran və Rusiyanın maraqları bir-birinə ziddir. Bir müddət əvvəl Sergey Şoyqunun İrana və sonra Azərbaycana səfərinin əsas müzakirə predmetindən birinin də məhz Zəngəzur dəhlizi ilə bağlı olduğu şübhəsizdir".

Ekspert bildirir ki, Zəngəzur dəhlizinə beynəlxalq oyunçu və ya təşkilat tərəfindən nəzarətin razılaşdırılması belə dəhlizin açılmasına yaşıl işıq deyil. Təbii ki, dəhlizə ancaq Rusiya nəzarət edərsə, o halda dəhlizin açılması reallaşa bilər. Bu həm də 10 noyabr 2020-ci il üçtərəfli bəyannamənin tələblərindən irəli gəlir: "Heç təsadüfi deyil ki, rəsmi İrəvan sözügedən bəyannamənin qüvvədən düşdüyü barədə dəfələrlə bəyanat səsləndirib. Azərbaycan da Minsk qrupunun ləğvi ilə bağlı tələblər irəli sürür. Ermənistan və Qərb dəhlizə rus nəzarəti variantın əleyhinə olduğundan, Zəngəzur dəhlizi ilə bağlı razılaşmanın əldə edilməsi çətin gedir.

Bir müddət əvvəl, Zəngəzur dəhlizi məsələsinin sülh müqaviləsi layihəsindən çıxarılması barədə məlumatlar müəyyən suallar yaratmışdı. Əslində, Zəngəzur dəhlizi məsələsinin ayrı müzakirə predmetə çevrilməsi Azərbaycanın maraqlarını bu və ya digər formada təmin etməyə imkan verir. Əvvəla, unutmayaq ki, Ermənistanın Azərbaycan torpaqlarını 30 illik işğalda saxlaması nəticəsində vurduğu yüzmilyardlarla ziyanı ödəmək məcburiyyətindədir və təbii ki, Ermənistanın bu ziyanı, ancaq ərazisi hesabına ödəyə bilər. Bu ərazi Zəngəzur dəhlizinin keçdiyi ərazilər ola bilər.

Digər tərəfdən, əgər Ermənistan rəsmi öhdəliklərindən tam şəkildə imtina edərsə, işğal nəticəsində vurduğu ziyanı ödəməkdən yayınmağa çalışarsa, əlbəttə ki, Azərbaycan qarşısında duran məsələlərin həllinə hərb yolu ilə nail olunacaq.Təbii ki, bu halda Zəngəzur dəhlizi məsələsi sülh müqaviləsindən kənar qalmalıdır".

- Məsələ beynəlxalq mətbuatın da diqqət mərkəzindədir. "Al Majalla"nın yazdığına görə, Rusiya ilə Ukrayna arasında iki ildən artıqdır davam edən müharibə ilə yanaşı, Qərbin Rusiyaya qarşı tətbiq etdiyi sanksiyalar bu ölkədən Avropaya dəniz nəqliyyatı daşımalarını da əngəlləyib. Ona görə də Rusiyanın yerüstü nəqliyyat marşrutlarına, o cümlədən Zəngəzur dəhlizinə marağı artıb. Rusiya gözləyir ki, dəhliz işə salınarsa, özü üçün böyük iqtisadi səmərə verəcək, həmçinin Mərkəzi Asiya ilə Cənubi Qafqazı birləşdirən ənənəvi ticarət yollarını canlandıracaq, region ölkələrinin iqtisadiyyatını genişləndirəcək və qarşılıqlı ticarət həcmini artıracaq.

İran şimal sərhədindəki dəhlizdə iştirak edən ölkələrdən biri olsa da, Moskvanın təsdiq etdiyi tənlikdən kənarda qalıb. İranın Xarici İşlər Nazirliyi açıqlayıb ki, dəhliz qırmızı xəttdir və heç kim onu "keçə bilməz". Tehran bilir ki, dəhlizin aktivləşdirilməsi yalnız öz zərərinə qüvvələr balansının dəyişməsinə gətirib çıxaracaq, Azərbaycanın Ermənistanın Sünik (Qərbi Zəngəzur) vilayəti vasitəsilə Naxçıvan Muxtar Respublikasına maneəsiz çıxışını təmin edəcək və bu, İranın Ermənistanla sərhədini ləğv edəcək.

Zəngəzur dəhlizi Ermənistan üzərindən İrana şimal ölkələri, Gürcüstan, Rusiya və digər Avropa ölkələrinə çatmağa imkan verir və Tehranda düşünürlər ki, dəhlizin aktivləşməsi bu marşrutu bağlayacaq. Dəhlizin reallaşdırılması həm də Rusiyaya Cənubi Qafqaz regionunda mütləq təhlükəsizlik nəzarətini təmin edəcək. Tehranın dəhlizin açılmasını qətiyyətlə rədd etməsinin başqa səbəbi də budur. Region ölkələrinin siyasi təcrübələrinə görə, Zəngəzur dəhlizinə kim nəzarət edirsə, o, əsas söz sahibinə çevrilir. Ukrayna ilə müharibənin yaratdığı təzyiqlər Bakı ilə Moskva arasında müttəfiqliyi gücləndirərək strateji səviyyəyə qaldırsa da, Moskva ilə Tehran arasında müttəfiqlik və ya münasibətlərdə dalğalanmalar davam edirdi. Bu, ekvivalentliyə əsaslanmayan münasibətdir, çünki Moskva Tehranı real tərəfdaş deyil, dəstəkləyici oyunçu kimi görür. Zəngəzur məsələsi də itirdiyi zamanda onunla oynadığının sübutudur. İranın sadiq dostu olan Ermənistan da son vaxtlar mövqeyini dəyişib, öz maraqlarını dostluqdan üstün tutub. Ermənistanı əvvəlki mövqeyini dəyişməyə sövq edən onun NATO-ya üzvlüyünü rədd etməsi və son Qarabağ müharibəsinə qətiyyətlə müdaxilə etməməsidir. Buna görə də İrəvan dərhal Moskvanın razılaşdırdığı geosiyasi sövdələşmələrdə iştirak edəcəyini bəyan etdi.

Nəhayət, Rusiya nüvə dosyesi və Yaxın Şərq regionunda milis fəaliyyətinə görə ona qarşı tətbiq edilən beynəlxalq sanksiyalardan əziyyət çəkdiyi təcrid əsasında İranı Zəngəzur dəhlizinin aktivləşdirilməsini qəbul etməyə məcbur salacaq kartların olduğuna əmindir. O hesab edir ki, müttəfiqinin yeni geosiyasi dəyişikliklərə boyun əymək və qəbul etməkdən başqa yolu yoxdur. O, razılıq və ya məcburiyyət yolu ilə özünü bu dəyişikliklərə inandırmaq gücünə güvənir.

Dəhlizin həyata keçirilməsi yolu bağlayacaq. Eyni zamanda, bu, Rusiyaya Cənubi Qafqaz regionunda mütləq təhlükəsizlik nəzarətini təmin edəcək.

Həqiqət budur ki, Rusiya Qafqazın bu regionunda yeganə oyunçu deyil, ABŞ-nin də burada əlaqələndirici rolu var. Əslində, Vaşinqton son Qarabağ müharibəsindən sonra Bakı ilə İrəvan arasında sülh yarada bildi. Türkiyənin də Bakıya böyük təsiri var. Bütün bunlar o deməkdir ki, Moskva Zəngəzur dəhlizinə birtərəfli nəzarət etməyəcək. O, Türkiyə ilə bərabər olmasa da, nəzarəti bölüşəcək. Hər halda, bu məsələdə yeganə uduzan İran olacaq, çünki o, Qafqazdakı ən mühüm strateji nöqtələrindən birini itirəcək. Rusiyaya qarşı çıxsa, təhdid etsə belə, onun yüksəktonlu açıqlamalarının hadisələrin gedişinə heç bir təsiri olmayacaq. Xüsusilə bu regionda güclü bazarlıq mövqeyi olmadığı üçün güc vasitələri Rusiya ilə üç qonşusu Azərbaycan, Ermənistan və Türkiyə arasında bölüşdürülür. Diplomatik münasibət və siyasi bəyanatlar coğrafi və ya siyasi xəritələri dəyişdirmir, sadəcə, hərbi əməliyyatlar onları dəyişdirir ki, bu da İran rejimi üçün çox baha başa gəlir və təhlükəlidir.

✍ **Tahirə**

***AMEA-nın akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun Türkiyə tarixi və iqtisadiyyatı şöbəsinin müdiri, tarix üzrə fəlsəfə doktoru Namiq Məmmədov hafta.az-a müsahibəsində bu yaxınlarda işıq üzü görmüş "Müasir Türkiyənin neft problemi" adlı kitabında Türkiyə-Azərbaycan iqtisadi əməkdaşlığı kontekstində qardaş ölkənin neft probleminin həlli perspektivləri, Türkiyənin son dövrlər ölkə iqtisadiyyatında yaranmış böhrandan tezliklə çıxa bilmə imkanları, ölkədə keçmişdə baş vermiş iqtisadi böhranlar, hazırkı böhrandan tezliklə çıxılması üçün həm yaxın qonşu, həm də Qərb ölkələri ilə iqtisadi, ticari əlaqələrin zəruriliyi və s. mövzulardan bəhs etdi.***

# Azərbaycan Türkiyənin enerji təhlükəsizliyində mühüm rol oynayır



**Namiq Məmmədov,**
iqtisadçı, alim

## Müsahib

***- Bu yaxınlarda işıq üzü görmüş "Müasir Türkiyənin neft problemi" kitabınızda Türkiyə-Azərbaycan iqtisadi əməkdaşlığı kontekstində qardaş ölkənin neft probleminin həlli perspektivlərindən də danışırsınız. Hazırda bu istiqamətdə hər iki dövlətin müvafiq qurumları hansı işləri görə bilir?***

- Orada söhbət yalnız konkret olaraq neft məhsullarından yox, iki ölkə arasında həm də qaz, ümumiyyətlə, karbohidrogen ehtiyatlarıyla bağlı əməkdaşlıqdan gedir. Azərbaycanın yalnız Abşeron yatağındakı aşkar olunmuş karbohidrogen ehtiyatı 1 trilyon kubmetrdən artıqdır. Bundan əvvəl "Şahdəniz" yatağında 2 trilyon kubmetrdən çox qaz ehtiyatının olduğu aşkar edilmişdi. Bilirik ki, Türkiyənin neft-qaz məhsullarına böyük ehtiyacı var, çünki Türkiyə karbohidrogen ehtiyatları cəhətdən xarici ölkələrdən asılı olan bir dövlətdir. Azərbaycanla bu istiqamətdə əməkdaşlıq əsasən Bakı-Tbilisi-Ceyhan neft kəməri vasitəsilə həyata keçirilir. Bakı-Tbilisi-Ərzurum qaz kəməri və ona alternativ digər bir kəmərin çəkilməsi, həmçinin 2018-ci ildən Trans-Anadolu (TANAP və Trans-Adriatik (TAP) boru kəmərləri layihələrinin həyata keçirilməsi ölkənin qaz təchizatınn artırılması ilə yanaşı, Türkiyənin Avropanın enerji təminatında aparıcı dövlətlərdən birinə çevrilməsinə gətirib çıxarıb. Bu da Türkiyənin gələcək inkişafına böyük töhfə verir. Bundan əlavə, "Star" neft zavodunun tikilməsi də Türkiyə iqtisadiyyatınının inkişafına, Azərbaycanın xaricə maliyyə yatırmasına gətirib çıxarmışdır. Bu da qarşılıqlı münasibətlərin yüksək səviyyədə inkişafına, eyni zamanda Türkiyənin neft-qaz problemlərinin etibarlı şəkildə həllinə təkan verən amillərdəndir. Hər ik ölkə bundan qarşılıqlı şəkildə faydalanır.

***- Yeri gəlmişkən, qardaş Türkiyədə xüsusən son aylarda iqtisadi durum xeyli ağırlaşıb. Avqust ayındakı bəyanatında xəzinədarlıq və maliyyə naziri Mehmet Şimşək də Yaxın Şərqdəki hərbi-siyasi böhranın regionda xüsusilə neft və turizm sektoruna güclü zərbə vura biləcəyini bildirdi. Nazir eyni zamanda Türkiyədə büdcə kəsri və inflyasiya barəsində həyəcanlı rəqəmlər səsləndirdi. Necə düşünürsünüz, Türkiyə bu böhrandan tezliklə çıxa biləcəkmi və necə çıxacaq?***

- İqtisadi proseslər uzun vaxt aparan məsələdir. Hər hansı bir ölkədə iqtisadi böhrandan qısa müddətdə çıxmaq üçün şəraitə uyğun işlənmiş xüsusi bir baza olmalı və sistemli tədbirlər görülməlidir. Bu tədbirlər daha çox istehsala yönəlmiş tədbirlər olmalıdır. Türkiyədə hazırda kiçik və orta biznesin inkişaf etmiş sahələri mövcuddur. Bu da əsasən toxuculuq və mədənçiliyin bəzi sahələrini əhatə edir. Təəssüf ki, bu, ağır sənaye sahəsində azlıq təşkil edir. Bu və digər səbəblərdən Türkiyənin böhrandan çıxması üçün ilkin olaraq qısa müddətdə həmin prosesin bazasının yaradılması real görünməz. Yəni hətta bu deyilsə də, reallıqda mümkün deyil. Uzun müddətdə, xüsusilə istehsal və maliyyə ilə bağlı yaranmış problemləri həll etmək üçün ilk növbədə idxal olunan və ixrac edilən məhsulların həcmini tənzimləmək gərəkdir. Ona görə də qısa müddətdə böhrandan çıxılması real görünmür. Əlbəttə, bu müəyyən müddət alacaq. Bunun üçün də, dediyim kimi, ardıcıl görülmüş sistemli tədbirlərə ehtiyac var...

> *"Türkiyənin neft-qaz məhsullarına böyük ehtiyacı var, çünki Türkiyə karbohidrogen ehtiyatları cəhətdən xarici ölkələrdən asılı olan bir dövlətdir*

***- Türkiyənin xəzinə və maliyyə naziri Mehmet Şimşeyin Qərbə bağlı bir siyasi fiqur olduğu bildirilir. Onun bu nazir postuna Türkiyəni iqtisadi böhrandan çıxarması məqsədi ilə gətirildiyi vurğulanır. Sizcə, o, bu istiqamətdə ciddi uğur qazana biləcəkmi?***

- Mehmet Şimşeyin qarşısında duran əsas problem Türkiyəyə maliyyə axınının təmin edilməsidir. Xüsusilə xarici ölkələrdən uzunmüddətli kreditlər alınması və Avropa fondlarında Türkiyənin rolunun artırılması, onlardan maliyyə dəstəyinin alınmasıyla bağlı tədbirlər həyata keçirilir.

▶▶ Səh. 6

# Kibertəhdidlərdən necə qorunaq?

## Layihə

***Yaşadığımız informasiya texnologiyaları əsrinin ən böyük problemlərindən biri kibertəhdidlərdir. Bu cür hücumlar, ümumiyyətlə, məxfi məlumatlar əldə etmək, onu dəyişdirmək və məhv etmək, istifadəçilərdən pul tələb etmək və ya şirkətlərin normal fəaliyyətini pozmaq məqsədi daşıyır. Dünyada geniş yayılmış haker şəbəkələri maliyyə əməliyyatları həyata keçirir, vətəndaşların şəxsi məlumatlarına giriş əldə edir və dövlət orqanlarının rəsmi saylarını təzyiq altında saxlayır. Ona görə də kibertəhlükəsizlik bir sıra ölkələrdə xarici siyasətin prioritetlərindən biri elan edilib.***



*“Yaxşı haldır ki, son biriki il ərzində ölkədə informasiya texnologiyaları, xüsusilə də kibertəhlükəsizlik sahəsində mütəxəssislərin hazırlanmasında xeyli aktivlik müşahidə olunur*

Qeyd edək ki, Dünya İqtisadi Forumunun Qlobal Risklər Hesabatına görə, təkcə 2023-cü ildə kiberhücumlar nəticəsində dünya iqtisadiyyatına dəymiş zərər 8 trilyon ABŞ dolları səviyyəsində olub. Bu isə qlobal ÜDM-nin, təxminən, 8 faizi deməkdir. Əgər biz həmin rəqəmi bir ölkə iqtisadiyyatı formasında təsəvvür etsək, bu ölkə ABŞ və Çindən sonra ən iri iqtisadiyyata malik olardı. “Forbes” jurnalında dərc olunmuş tədqiqata əsasən, dünyada hər 40 saniyədə bir yeni kiberhücum baş verir. Eyni zamanda yerli statistikaya baxsaq, 2023-cü ildə Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti dövlət qurumlarına 1 191 kiberhücum indikatoru (IOC) müəyyən edib. Bu kibertəhdidlərin 517-si daxili araşdırma, 674-ü isə dövlət qurumlarıdan daxil olmuş insidentlərin araşdırılması əsasında müəyyən olunaraq bloklanıb. Bu ilin yanvar-avqust aylarında isə Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti (XRİTDX) dövlət qurumlarına 675 kiberhücum indikatoru (IOC) müəyyən edib. Bu, bir il əvvəlki göstəricidən, təxminən, 17 faiz azdır.

Kibertəhdidlərin 340-ı daxili araşdırma, 335-i isə dövlət qurumlarından daxil olmuş insidentlərin araşdırılması əsasında müəyyən olunaraq bloklanıb. Təkcə avqust ayında 52 kiberhücum müəyyən olunub ki, bu da 1 il əvvələ nisbətən 2,3 dəfə azdır. Hesabat dövründə “AzStateNet” şəbəkəsi üzrə 560,7 milyon zərərli keçid, son istifadəçilərdə quraşdırılan mərkəzi antivirus sistemi vasitəsilə 3 milyon 43 min 900, “Sandbox” mühafizə sistemi vasitəsilə isə 170 min 768 zərərverici tərkibli elektron sənəd blok edilib.

Qeyd edək ki, ölkəmizin elmi-texniki tərəqqisində mühüm rol oynayan informasiya-kommunikasiya texnologiyalarının dinamik inkişafı bu sahədə təhlükəsizlik risklərinin idarə edilməsini və informasiya infrastrukturlarının kibertəhdidlərə qarşı dayanıqlığının artırılmasını da labüd edir. Bu isə öz növbəsində, təhlükəsizliyin təmin olunmasında yeni yanaşmalar tələb edir və informasiya təhlükəsizliyinin etibarlı təminatı baxımından dövlətlərin məsuliyyətini xeyli artırır. Təsadüfi deyil ki, kritik informasiya infrastrukturlarının kibermüdafiə qabiliyyətinin gücləndirilməsi müasir dövrün ciddi əhəmiyyət kəsb edən çağırışlarından və təhlükəsizlik cəhətdən vacib vəzifələrdən hesab olunur. “Azərbaycan Respublikasının informasiya təhlükəsizliyi və kibertəhlükəsizliyə dair 2023-2027-ci illər üçün Strategiyası”nda da kritik informasiya infrastrukturlarının təhlükəsizliyinin təmin edilməsinə xüsusi yer verilib. Həmçinin son illər bu istiqamətdə görülən işlər, qəbul edilən normativ hüquqi aktlar, yaradılan kibermətəblər də bunun bariz nümunəsidir.

Yeri gəlmişkən, ölkədə getdikcə artan kibertəhlükəsizlik çağırışlarına cavab olaraq ötən il Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi İsrailin texnologiya üzrə ən nüfuzlu ali təhsil müəssisəsi - “Technion” İnstitutu ilə birgə Azərbaycan Kibertəhlükəsizlik Mərkəzini təsis edib. Bu mərkəz yüksək ixtisaslı mütəxəssis və təlimçilərin yetişdirilməsində böyük rol oynayır. Mərkəzdə 3 il ərzində 1 000-dən çox şəxsə təlim verilməsi nəzərdə tutulub. Eyni zamanda mərkəzdə 15 təlimçinin yetişdirilməsi sayəsində gələcəkdə ölkəmizdə kibertəhlükəsizlik sahəsində mütəxəssislərin hazırlanması geniş vüsət alacaq.

Kibertəhlükəsizlik sahəsində regionda lider ölkələrdən hesab edilən İsrailin peşəkar müəllim heyəti Azərbaycana gələrək təlim iştirakçılarını ən son kibertəhlükəsizlik təhdidlərini, tendensiyaları və ən yaxşı təcrübələri əhatə edən bilik və bacarıqlarla təmin edirlər. Mərkəzdə ən müasir texnologiya və avadanlıqlarla təchiz olunmuş sinif otaqları, təlim otaqları, simulyasiya otaqları və laboratoriyalar yaradılıb. Tələbələr həmin laboratoriyalarda tədqiqat apara, müxtəlif kibertəhlükəsizlik məhsulları yarada bilirlər. “Technion” İnstitutunun təlim proqramına əsasən keçirilən təlimlərdə nəzəri və praktiki biliklər öyrədilir. İndiyə qədər Azərbaycan Kibertəhlükəsizlik Mərkəzindən 120 tələbə məzun olub. Məzunların 72 faizi özəl və dövlət sektorlarında işlə təmin olunublar.

■ **Azərbaycan İnternet Forumunun prezidenti Osman Gündüz hesab edir ki, son illər Azərbaycanda kibertəhlükəsizliklə bağlı infrastrukturun və qanunvericiliyin təkmilləşdirilməsi istiqamətində ciddi addımlar atılıb:** “İnformasiya təhlükəsizliyi və kibertəhlükəsizlik indiki məqamda milli təhlükəsizliyin əsas tərkib hissəsidir və hazırda vətəndaşların, dövlət və özəl qurumların təhlükəsizliyi prioritet məsələ seçilərək, bu istiqamətdə yeni layihələr üzərində də çalışılır. Kibertəhlükəsizlik sahəsində mütəxəssislərin hazırlığı məqsədilə Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Elektron Təhlükəsizlik Xidməti ilə İsrailin tanınmış “Technion” Universiteti arasında müqavilə imzalanıb.

*“Xüsusilə tələbələr, peşə sahibləri, işçilər, dövlət məmurları, ümumilikdə bütün kateqoriyalar arasında kibertəhlükəsizlik üçün kibergigiyena maarifləndirici təlimləri, seminarlar, konfranslar intensiv təşkil olunmalıdır*

Müqaviləyə əsasən, ötən ildən Azərbaycan Kibertəhlükəsizlik Mərkəzi fəaliyyətə başlayıb. Ümumiyyətlə, yaxşı haldır ki, son bir-iki il ərzində ölkədə informasiya texnologiyaları, xüsusilə də kibertəhlükəsizlik sahəsində mütəxəssislərin hazırlanmasında xeyli aktivlik müşahidə olunur. Əvvəllər bu sahədə universitetlər və az sayda qurumlar, “Step İT Academy”, “Code Academy” və s. bu tip qurumlar peşəkar İT hazırlığı ilə məşğul olurdular. İndi xeyli sayda yeni qurumlar bu istiqamətdə fəaliyyətə başlayıblar. Ümid edirəm, bu sektorda yeni olan iddialı qurumlar keyfiyyətli mütəxəssis hazırlığı sahəsində qarşıya qoyulan məqsədlərə çata biləcəklər”.

Onun fikrincə, xüsusi rabitə, informasiya və ümumiyyətlə, kibertəhlükəsizlik sahəsində milli maraqlarımızın qorunması baxımından atılan addımları təqdirəlayiq hesab etmək olar: “Müsbət haldır ki, ölkəmizdə kibertəhlükəsizlik sektorunda ciddi irəliləyiş və inkişaf var. Düşünürəm ki, gələcəkdə Azərbaycanda yeni bir mühit - kritik informasiya mühiti formalaşacaq. Bu mühitin formalaşması üçün ən mühüm məsələ kadr təminatı və qanunvericiliyin təkmilləşməsidir. Bununla bağlı da ardıcıl iş aparılmaqdadır”.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

İnformasiya və Kommunikasiya Texnologiyalarının inkişaf etdirilməsi

■ **“Azərbaycan İnformasiya və Kommunikasiya Texnologiyaları (İKT) Sənayesi Assosiasiyası”nın İdarə Heyətinin sədri Elvin Abbasov isə hesab edir ki, ökəmizdə rəqəmsal həllər artdığı üçün eyni vaxtda kibertəhlükələrin sayı artmaqdadır:** “Bunun həlli üçün əsas məqam maarifləndirmədir. Kibergigiyena mövzularının geniş istiqamətdə yayılmasıdır. Kibergigiyena barədə ətraflı məlumatlandırma ölkədə kibertəhlükəsizliyin önəmli tərəflərindəndir. Düşünürəm ki, ölkəmizdə kibergigiyena mövzularının geniş istiqamətdə yayılması kiberhücumların qarşısını ala bilər. Xüsusilə tələbələr, peşə sahibləri, işçilər, dövlət məmurları, ümumilikdə bütün kateqoriyalar arasında kibertəhlükəsizlik üçün kibergigiyena maarifləndirici təlimləri, seminarlar, konfranslar intensiv təşkil olunmalıdır. Bu, çox önəmlidir.

Məlumdur ki, hazırda bir çox hücum növləri - kiberinsidentlər, kiberdələduzluq və s. daha çox insan faktoruna dayanır. Yəni qarşı tərəfdə virus, proqram təminatçısı yoxdur, bir insan var və o, sosial şəbəkələrdən mesaj proqramlarından istifadə edərək hücumlar təşkil edir. Bir şəxs müxtəlif sosial şəbəkələr vasitəsilə və ya email, ya mobil nömrələr vasitəsilə müxtəlif mesajlar atır. “Fishing” üsulu ilə bundan qorunmaq üçün antivirus və təhlükəsizlik proqramları onları yaxalayan kimi kiberhücumçu digər domenə keçid edir. Bunun qarşının alınması üçün əsas faktor maarifləndirmədir, kibergigiyena mövzularının əhatəli olaraq mənimsənilməsidir. Biz özümüzü müdafiə etmək üçün məlumatlı olmalıyıq ki, bizə göndərilən link, mesaj və ya sayta keçid, şəkil, video - bunların altında bizə qarşı xüsusi təşkil edilmiş “fishing” və ya təhlükə motivləri daşıyan fayl olmasın”.

Ekspert vurğulayıb ki, bu istiqamətdə peşəkar kadrların sayının ilbəil artması kiberdələduzluğa qarşı aparılan mübarizənin effektivliyini artırır: “Çox müsbət bir haldır ki, rəqəmsallaşma artdıqca buna adekvat olaraq kibertəhlükəsizlik mütəxəssisləri yetişdirilir. Dövrə uyğun olaraq kiberdələduzlar da artacaq. Bunun üçün kibermütəxəssislərə böyük ehtiyac var. Bütün dünyada dövləti və vətəndaşları kibertəhlükələrdən qorumaq üçün bu istiqamədtə CERT-lər fəalliyət göstərir. Bəzi ölkələrdə 24 və daha çox belə qurum var. Azərbaycanda aktiv olaraq 2 belə qurum mövcuddur - CERT.gov.az və CERT.az. Bu qurumlar kiberpolis rolunu oynayırlar. CERT.gov.az (Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti) dövlət qurumlarına qarşı kiberhücumlara, CERT.az isə vətəndaşlara, bank və digər özəl sahələrə cavabdehlik daşıyırlar. Hazırda Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti milli kibertəhlükəsizlik istiqamətlərinin inkişaf etdirilməsinə öz dəstəyini göstərməkdədir”.

✍ ***Sevinc***

*Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi əsasında hazırlanıb.*

# “Bakcell” “Vodafone Group”la əməkdaşlıq edəcək ®

**Ölkənin ən böyük özəl mobil operatoru “Bakcell” dünyanın aparıcı telekommunikasiya şirkəti “Vodafone Group”dan strateji tərəfdaşlıq dəstəyi alacaq.**

Bu il “Vodafone” “Azerconnect Group” ilə tərəfdaşlıq müqaviləsi imzalayıb. Müqaviləyə əsasən “Bakcell”, qrupa bağlı şirkət olaraq, xidmət təkliflərini artırmaq məqsədilə süni intellekt əsaslı həllər və qabaqcıl məhsullar da daxil olmaqla, “Vodafone” şirkətinin təcrübəsindən istifadə edəcək.

“Vodafone” 15 ölkədə 330 milyondan çox müştəriyə mobil və sabit şəbəkə xidmətləri təqdim edir, daha 45 ölkədə isə mobil şəbəkələrlə əməkdaşlıq edirik. Şirkət dünyanın ən böyük IoT platformalarından birinə malikdir. Afrika qitəsində “Vodafone” şirkətinin maliyyə texnologiyaları müəssisələri hazırda 7 ölkədə 79 milyondan çox müştəriyə xidmət göstərir. Bu da digər provayderin əməliyyatlarından daha çoxdur. “Bu əməkdaşlıq “Bakcell”in telekommunikasiya bazarında mövqelərini daha da gücləndirəcək və müştərilərimizə ən son innovativ həll yolları təqdim etməyimizə imkan verəcək.




“Vodafone”la tərəfdaşlıq, həmçinin ölkədə rəqəmsal transformasiyanı sürətləndirəcək və yeni texnologiyaların tətbiqinə əhəmiyyətli töhfə verəcək”, - deyə “Bakcell”-in baş icraçı direktoru Klaus Müller bildirib.

“Vodafone”un Tərəfdaş Bazarları üzrə baş icraçı direktoru Petr Dvorjak isə öz növbəsində əlavə edib: “Biz telekommunikasiya şəbəkəsinin təkmilləşdirilməsi, əməliyyatların səmərəliliyi və müştəri xidmətləri sahəsində ən yaxşı təcrübələri bölüşmək məqsədilə dünyada bir sıra telekommunikasiya operatorları ilə əməkdaşlıq edirik. Biz qarşıdakı illər ərzində “Bakcell”lə birgə işləməyi səbirsizliklə gözləyirik. Əminik ki, bu əməkdaşlıq “Bakcell”in fərdi və korporativ müştərilərinə böyük fayda gətirəcək”.

“Bakcell” haqqında

“Bakcell” Azərbaycanın ilk və ən böyük özəl telekommunikasiya şirkətidir. Hazırda ”Bakcell” üç milyondan çox müştərini yüksək keyfiyyətli və sürətli telekommunikasiya xidmətləri ilə təmin edir. Şirkət süni intellektə əsaslanan innovasiyalar və həllər vasitəsilə Azərbaycanın davamlı inkişafına töhfə verməyə çalışır və Azərbaycan iqtisadiyyatının qeyri-neft sektorunun ən böyük investorlarından biridir.

“Bakcell” müxtəlif ölkələrdə enerji, telekommunikasiya, yüksək texnologiyalar və tikinti sahələrində fəaliyyət göstərən “NEQSOL Holding” beynəlxalq şirkətlər qrupunun tərkibinə daxildir.

## XƏBƏRİNİZ OLSUN...



■ “Bütün dünya ümumi amalımız olan Krım uğrunda mübarizədə Ukraynanın yanındadır”. Bunu Ukrayna Prezidenti Vladimir Zelenski Krım tatarlarının üzləşdiyi faciənin xatirəsinə həsr olunan kompleksin açılışında deyib. O bildirib ki, Krımın yenidən Ukraynanın tərkibinə qaytarılması ilə ədalət bərpa olunacaq.

---

■ Cari ilin yanvar-avqust aylarında pərakəndə ticarət şəbəkəsində istehlakçılar tərəfindən təkcə avtomobil benzini və dizel yanacağına 2 122 mln. manat xərclənib. Bu göstərici 2023-cü ilin müvafiq dövrünün göstəricisini 7,5% üstələyib.

---

■ Bu ilin yanvar-avqust aylarında Azərbaycanda pərakəndə ticarət dövriyyəsi 37,2 milyard manat təşkil edib. Bu, ötən ilin eyni dövrü ilə müqayisədə 3,5% çoxdur. Səkkiz ayda pərakəndə ticarət şəbəkəsində istehlakçılara 20,6 milyard manatlıq ərzaq məhsulları, içkilər və tütün məmulatları, 16,6 milyard manatlıq qeyri-ərzaq malları satılıb.

---



■ Kriştianu Ronaldo futbol tarixinin ən yaxşısı hesab etdiyi klubun adını açıqlayıb. O, bu barədə yutub kanalında danışıb: “Real” tarixin ən yaxşı klubudur və mən orada oynamaqdan çox xoşbəxt idim”.

---

■ Azərbaycanda 2024-cü ilin avqust ayında ötən ilin eyni dövrünə nisbətən inflyasiya 3,5% təşkil edib.

İstehlak qiymətləti indeksi qida məhsulları, içkilər və tütün məmulatları üzrə 103,0 faiz, qeyri-qida məhsulları üzrə 101,8 faiz, əhaliyə göstərilmiş ödənişli xidmətlər üzrə 105,6 faiz təşkil edib.

---

■ Tanınmış fizik Albert Eynşteynin ABŞ-nin 32-ci Prezidenti Franklin Ruzveltə ünvanladığı məktub hərracda 3,992 milyon dollara satılıb. Sözügedən məktubda Eynşteynin nasist Almaniyasının atom bombası yarada biləcəyi ilə bağlı xəbərdarlığı yer alıb.

---



■ “Rusiyalı hərbçilər Kursk vilayətində təqribən 10 yaşayış məntəqəsini azad edib”. Bu barədə məlumatı Rusiya Silahlı Qüvvələrinin Baş Hərbi-Siyasi idarəsinin rəisinin müavini, “Axmat” xüsusi təyinatlılarının komandiri Aptı Alaudinov açıqlayıb.

---

■ ABŞ-nin Energetika Nazirliyi yanında Energetika İnformasiyası Administrasiyası (EIA) 2024-2025-ci illər üçün maye karbohidrogenlərin gündəlik qlobal hasilatı üzrə proqnozunu açıqlayıb.

Bu il maye karbohidrogenlərin gündəlik qlobal istehsalının ortalama hesabla 102,18 mln. barel olacağı ehtimal edilir ki, bu da öncəki proqnozdan 0,18 mln. barel azdır.

# Azərbaycan bu təxribatlara hazırdır



**Arzu Nağıyev,**
siyasi şərhçi

***S**on günlərdə Azərbaycan və Ermənistan arasında sülh dabışıqları ilə bağlı məsələlər yenidən aktuallaşıb. Erməni baş nazir Nikol Paşinyan və xarici işlər naziri Ararat Mirzoyanın ziddiyyətli açıqlamaları məsələyə yenidən baxmaq və təhlil etmək zərurəti yaradır. Suallarımızı VII çağırış parlament seçkilərinin qalib namizədi, siyasi şərhçi Arzu Nağıyev cavablandırır:*

**Müsahib**

***- Ermənistan baş naziri Nikol Paşinyan yenidən ziddiyyətli sülh açıqlaması ilə yadda qaldı...***

- Ermənistan baş naziri bir neçə məsələ istisna olunmaqla, qalan müddəaların razılaşdırılması ilə bağlı bəyanat verib. Burada əsas məsələ Azərbaycana qarşı olan ərazi iddiasının Ermənistan konstitusiyasından çıxarılmasının labüdlüyüdür. Ermənistan konstitusiyasında Qarabağın Ermənistana birləşdirilməsi məsələsi, eyni zamanda, müstəqillik aktına istinad etmələri ilə bağlı problemlər var. Bu, gələcəkdə, hətta müqavilə bağlandıqdan sonra Ermənistan parlamentində ratifikasiya olunmalı, dəyişməlidir. Onun dəyişdirilməsi isə iddia edildiyi kimi, referendum yolu ilə ola bilər. Son zamanlar erməni siyasətçilər referendumun 2027-ci ildə ola biləcəyini iddia edir. Görünən budur ki, nəyin bahasına olursa-olsun Ermənistanda bu prosesi uzatmaq, status-kvonu saxlamağa çalışırlar. Gələcəkdə yenə də torpaq iddiası problemlərinin yaradılması üçün bu sənəd hüquqi və siyasi akt kimi ortaya qoyula bilər.

Eyni zamanda, Ermənistan öz əməlləri ilə bağlı mövcud problemləri Azərbaycanın üzərinə yükləməyə çalışır və Konstitusiyamızda torpaq iddiasının olduğunu iddia edir, bunu tez-tez gündəmə gətirirlər. Təbii ki, bu absurddur. Əvvələ, indiki Ermənistan Ermənistan SSR-nin, müstəqil Azərbaycan Respublikası isə Azərbaycan Xalq Cümhuriyyətinin (AXC) varisidir. Azərbaycan AXC dövründə bu regionda çox böyük arealda olan torpaqlara malik idi. Əgər Ermənistan belə dərinə gedirsə, yenə də uduzacaq. Azərbaycanın heç vaxt kimsənin torpaqlarında gözü olmayıb və belə bir iddiası yoxdur. Paralel olaraq qeyd edək ki, azərbaycanlılar öz tarixi torpaqlarından qovulub, deportasiyaya məruz qalıblar. O yerlər Qərbi Azərbaycandır. Çoxsaylı azərbaycanlılar həmin ərazilərdə yaşayıb və tarixin müəyyən mərhələlərində 4 dəfə deportasiyaya məruz qoyulmaqla öz tarixi yurdlarını tərk ediblər. Ermənilər har hansı iddialar ortaya qoysalar da, bu məsələni qaldırmaq bizim hüquqi haqqımızdır.

***- Paşinyan sentyabrın 10-da dövlət sərhədinin delimitasiyası və sərhəd təhlükəsizliyi məsələlərini önə çəkərək sülh sazişindən sonra prosesin başqa prinsiplərə uyğun davam etdiriləcəyini deyib. Hansı başqa prinsiplərdən söhbət gedir?***

- Paşinyan bir neçə müddəa irəli sürüb. Məlumdur ki, ortada 1991-ci ilin Almatı bəyannaməsi var, demarkasiya və delimitasiya prosesi gedir. Eyni zamanda, bu, yekun razılaşma deyil. On üç kilometr ərazi delimitasiya olunub. Bu proses davam etməlidir. Bunun üçün də delimitasiya, demarkasiya ilə bağlı birgə işçi qrupu yaradılıb, öz işini davam etdirməlidir. Bu, ən ciddi məsələlərdən biridir. Son vaxtlar erməni baş naziri özü də demarkasiya olunan yerlərə baş çəkib və həmin ərazilərin son 30 ildə təhlükəsiz zona olduğunu bəyan edib. Təbii ki, Ermənistan sülhə imza atmağa məcburdur. Vaxtı uzatmaqla, müxtəlif manevrlərlə prosesdən qazanclı çıxmağa çalışacaq.

Ermənistanın bu manevrləri Azərbaycan Prezidentinin İtaliyada Çernobbio forumunda olarkən çıxışlarında da ortaya qoydu. Prezidentimiz bəyan etdi ki, sülh müqaviləsinin 80 faizi əsasən razlaşdırılıb. Bir daha qeyd etdi ki, sərhəddə 13 kilometr hissə delimitasiya edilib. Əgər Ermənistan son vaxtlar Qərbin təxribatçı fəaliyyətlərinə boyun əyməsə, proses davam edə bilər. Təəssüf doğuran məqam bundan ibarətdir ki, məhz Qərbin bu prosesə maneçilik törətməsi sülhün bərqərar olmasına zərbə vuran əsas amillərdən biridir. Ermənistan bölgədə Qərbə xoş getsin deyə, problemi uzatmaq istəyir.

***- Ermənistanın Azərbaycana qarşı əsassız iddiaları bu dəfə erməni spikerin dilindən səsləndi. Spiker ermənilərin guya zorla Qarabağdan deportasiya olunduğunu bəyan edir. Ermənistan bu cür "oyunları" ilə nə etməyə çalışır?***

- Əsassız iddialarla çıxış edən Ermənistan spikeri qondarma deportasiya məsələsini gündəmə gətirir. Məlumdur ki, sentyabr ayında antiterror əməliyyatı keçirilən zaman mübarizəmiz terrorçularla

> *Ermənistan sülhə imza atmağa məcburdur, amma vaxtı uzatmaqla prosesdən qazanclı çıxmağa çalışacaq*

olduğu üçün dəhliz açıq saxlanmışdı. Hər kəs özünün təhlükəsizliyi baxımından rahatlıqla bölgəni tərk edə bilərdi. Hətta bu imkandan separatçılar özləri də yararlana bilərdilər. Ona görə də Azərbaycan tərəfindən mülki əhaliyə qarşı heç bir təxribatdan, zor tətbiqindən söhbət gedə bilməz. Prezident dəfələrlə Azərbaycan vətəndaşlığını qəbul edən, sülh, dinc şəraitdə yaşamaq istəyən ermənilərin də digər xalqlar kimi bütün hüquqlarının tanınacağını, təhlükəsizliyinin qorunacağını bildirmişdi. Ona görə də Ermənistan spikerinin verdiyi bu bəyanatlar absurddur. Separtçıların qondarma qurumu Ermənistanda fəaliyyət göstərdikcə, təxribatçı addımlar davam edəcəkdir. Ermənistanda qondarma qurumun fəaliyyəti davam etdikcə, sülh prosesi zərbə altında qalacaq. Paşinyanın da bu "nümayəndəliklərin" bağlanmasına çalışdığı qeyd olunur. Ermənistanda toplaşan köhnə "Qarabağ klanı" aqibətlərini bildiyi üçün müxtəlif üsullarla özlərini qorumağa çalışır. Separatçı qüvvələrin həbs edilərək Bakıya gətirilməsi ən mühüm addımlardan idi və kimlərsə onları qorumağa çalışsa da, cinayətkarlar öz layiqli cəzalarını alacaqlar.

***- Ermənistan işğalında qalan digər dörd kəndimizin geri qaytarılması məsələsi İrəvanda müzakirə obyektidir...***

- Delimitasiya, demarkasiya komissiyasının fəaliyyəti ilə bağlı bir çox məqam var. Ermənistan konstitusiyasında dəyişiklik olandan sonra kəndlər də qaytarılacaq, sərhəd qoşunları da öz yerində oturacaq, ordu məsələsi də həll olunacaq. Yəni delimitasiya-demarkasiya prosesində 4 kəndin qaytarılmasından daha qlobal məsələlər var. Kəndlərin qaytarılması bu prosesdə gündəlik məsələdir ki, mütləq yerinə yetiriləcəkdir. Əsas məsələ konstitusiyanın dəyişdirilməsi, Azərbaycan torpaqlarına iddianın aradan qaldırılmasıdır.

***- Ermənistan sülhdən danışır, amma paralel olaraq Naxçıvan, Kəlbəcər istiqamətlərindən atəşkəsi pozur, sərhəddə gərginlik yaratmağa çalışır. Bu vəziyyəti necə izah etmək olar?***

- Bütün beynəlxalq görüşlərdən öncə, yaxud görüşlər gedə-gedə atəşkəsin pozulması ermənilərin adət etdiyi xəttdir. Harada onların zəif bəndləri varsa, o istiqamətdə atəşkəsi pozaraq özlərini daxili auditoriyaya göstərmək istəyirlər. Eyni zamanda, Azərbaycanın buna adekvat cavab verəcəyi gözləntisi ilə danışıqlara zərbə vurmaq istəyindədirlər. Harada atəşkəs pozulursa, diqqət o istiqamətə yönəlir və bu, danışıqların uzanmasına səbəb olur. Bu, məqsədyönlü şəkildə edilir. Çox vaxt ordu rəhbərliyi müxtəlif qüvvələrə qulluq edən kiçik zabitlərə, komandirlərə nəzarət edə bilmir. Bunlar revanşist qüvvələr, Qarabağda formalaşmış rejimə işləyən güclər ola bilər. Atəşkəsi pozmaq, sülhün bərqərar olmasının qarşısını almağa yönələn addımlardır. Azərbaycan bu təxribatlara hazırdır, müstəqil siyasətimiz var. Ermənistan isə diktə ilə siyasət aparır və bu, hərbdə də özünü qabarıq şəkildə göstərir.

***- II Qarabağ müharibəsində Azərbaycanın haqlı davasını tanıyan Rusiya kənara çəkiləndən sonra önə çıxan ABŞ, Fransa Ermənistanı silahlandırıb, ona maliyyə yardımları göstərməklə bölgədə yeni müharibəyə nail ola bilərmi?***

- Qərbin əsas məqsədlərindən biri regionda itirdiyi nüfuzunu yenidən bərpa etməkdir. Məlum məsələdir ki, 44 günlük müharibədə əldə olunmuş qələbə Qərbi, əsasən də Fransa və digər dövlətləri əvvəllər istədikləri kimi özbaşına hərəkət etdikləri bu ərazilərdən, iqtisadi, siyasi, hərbi baxımdan əldə etdiyi gəlirlərdən məhrum buraxdı. Bu müharibədən sonra onlar regionda mövqelərini itirdilər və nə olur-olsun, onu bərpa etmək niyyətlərini gizlətmirlər. Buna manеə ola biləcək əsas şərtlərdən biri isə Azərbaycanın Ermənistan işğalçı qoşunları üzərindəki qələbəsi, Türkiyənin nüfuzunun bölgədə artması, eyni zamanda, Rusiyanın regionda olmasıdır. Məlum qüvvələr bu əsas üç faktoru azaltmağa, Rusiyanı isə tamamilə regiondan çıxarmağa çalışsalar da, buna nail ola bilməyəcəklər. Rusiya heç vaxt regiondan getməyəcək. NATO və Rusiya sərhədi - Türkiyə- Ermənistan sərhədi deməkdir. Ermənistan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatından (KTMT) və müxtəlif beynəlxalq səviyyəli qurumlarda Rusiya ilə birgə iştirak etməkdən imtina edir. Üstəlik, Rusiyanın Ermənistanda keçirilən foruma qatılmamasından da narahatlıq ifadə edir. Yəni Ermənistan ikibaşlı oynayır.

Digər tərəfdən, Qərb Ukraynada fiaskoya uğradıqdan sonra Moldovadan istifadə etdi, indi də Ermənistandan yararlanırlar. Gürcüstan, Azərbaycan Qərbin diktəsi, iradəsi ilə idarə oluna biləcək dövlətə çevrilmədi. Azərbaycan bütün bunları təhlil edir, izləyir. Ona görə də 3+3 formatını qabartmaqla regional münaqişələrin hansı böyük fəsadlara yol açdığını bir daha göstərmək istəyir. Prezidentin İtaliyada səfərdə olarkən etdiyi çıxış, COP29-la bağlı gedən hazırlıqlar, parlament seçkiləri bir daha göstərdi ki, Azərbaycanın dəyişməyən daxili, xarici siyasəti var. Əsas məsələ dövlətin suverenliyi, ərazi bütövlüyüdür və bu istiqamətdə ciddi addımlar atılır.

Eləcə də Rusiya, ABŞ, Fransa özlərinin daxili xarici siyasətlərində bu və ya digər şəkildə başqa dövlətlərə təsir etməyə çalışa bilərlər. Azərbaycan kimi müstəqil siyasət aparan dövlətlərə birbaşa təsir edə bilməzlər. Bizim güclü ordumuz var və ərazi bütövlüyümüzü, suverenliyimizi bərpa etmişik. Dünyada ciddi tərəfdaşlarımız, türk dünyası var. Bütün bunlar nəzərə alınmalıdır və alınacaq. Buna görə də yeni müharibədən söhbət gedə blməz. Əsas məram və məqsəd sülh müqaviləsinin bağlanmasıdır. Regional dövlətlər, beynəlxalq müstəvi bunda maraqlı olmalıdır.

✍ *Tahirə Qafarlı*

**Müsahib**

***U**zun illərdən sonra Azərbaycanda keçirilən parlament seçkilərinin ilk dəfə bütün əraziləri əhatə etməsi və işğaldan azad olunan Şərqi Zəngəzur və Qarabağ İqtisadi rayonlarında uğurla başa çatması regionla bağlı yeni reallıqların dünya, beynəlxalq ictimaiyyətə növbəti təqdimatı ilə yanaşı mühüm mesajlarını vermis oldu. İşğaldan azad olunan ərazilərdə qurulan seçki məntəqələri dövlətin bərpa, əhalinin geriyə qayıdış proqramı, regionda sülhün əsas təminatçı rolunda çıxış etməsi, perspektivlərlə bağlı əsl həqiqətin nümayişi baxımından da müsbət hal kimi önə çəkilir. Müsahibimiz ilkin nəticələrə əsasən 122 saylı Xankəndi seçki dairəsindən bitərəf namizəd olan, seçkiyə qatılaraq qalib gələn Tural Gəncəliyevdir.*



**Tural Gəncəliyev**

# Xankəndiyə köç yeni başlayıb

***- Xankəndi seçki dairəsindən seçkilərə qatılan namizəd olaraq seçicilərlə keçirdiyiniz görüşlər, əsasən, hansı məqamları ilə yadda qaldı? Necə hesab edirsiniz, perspektiv həmin bölgə və əhaliyə hansı təminatın və hansı məsələlərin həllini vəd edir?***

- Ölkəmizin işğaldan azad olunan bütün ərazilərində, xüsusilə də Xankəndidə də ilk dəfə olaraq seçki məntəqələri quruldu. Mən özüm fəxr edir və qürur hissi keçirirəm ki, belə bir gözəl tarixi zamanda parlament seçkilərində namizədliyimi irəli sürüb millət vəkili kimi seçildim. Işğaldan azad olunan bütün bölgələrdə - Qarabağda, eləcə də Xankəndidə çox intensiv yenidənqurma, bərpa işləri gedir. Əhali ilə iş prosesi, əsasən, insanların öz yurdlarına geriyə qaytarılması, evlərlə, iş yerləri ilə təmin olunması, öz mülklərinə sahib çıxmaları ilə bağlı aparılır. Seçicilərimlə məhz bu istiqamətdə mövcud olan məsələlər ətrafında görüşlər keçirir, söhbətlər aparırdıq. Seçicilərin əsas qayğıları, sualları, istəkləri böyük qayıdış proqramı çərçivəsində geriyə dönüb mənzillərlə, işlə təmn olunmaları ilə bağlı olur. Bu istiqamətdə intensiv işlər görülür, müvafiq müraciətləri dövlət qurumlarına ünvanlayırıq.

***- İşğaldan azad olunan ərazilərdən seçilən deputatların əhali ilə aktiv təması və fəaliyyəti üçün qərərgahlar qurulması ilə bağlı işlər yerlərdə necə tənzimlənəcək?***

- Təbii ki, Qarabağ və Şərqi Zəngəzur iqtisadi zonalarından seçilmiş deputatların əhali ilə aktiv təması, fəliyyəti üçün müvafiq qərərgahlar, müvafiq yerlər ayrılmalıdır ki, deputatlar həmin yerlərdə insanlarla görüşüb, işlərini qura bilsinlər. Yəqin ki, bu məsələyə də diqqət ayrılacaq.

***- İşğaldan azad olunan ərazilərə köç edənlər olsa da, proses yeni başlayıb. Bu proses təmsilçisi olduğunuz rayon üzrə necə gedir?***

- Azad olunan bir çox ərazilərə köç edənlər var. Xankəndidə bu proses yeni başlayıb və hesab edirəm ki, dövlətimiz bu məsələni böyük qayıdış proqramı çərçivəsində mərhələli şəkildə uğurla həyata keçirəcək. Bir milyona yaxın köçkünün mərhələli şəkildə geriyə qaytarılması sadə proses olmasa da düşünürəm ki, uğurla davam edir. Ümidvaram ki, bu proses tez bir zamanda başa çatacaq və insanların mülkiyyət, geri qaydış və məşğulluğu bərpa olunacaq.

***- Ermənistan və havadarları qərəzli çıxışları ilə ölkəmizi hədəfə alıb. Bu dəfə Ermənistan parlamentinin spikeri erməni əhalinin Xankəndidən zorla deportasiya olunmasını bəyan edir. Bununla bağlı hansı faktları qeyd edərdiniz?***

- Sülh prosesi ərəfəsində öz təqsirləri və öhdələrinə düşən məsuliyyətdən qaçmaq məqsədilə qarayaxma kampaniyası aparırlar. Ermənistan öz konstitusiyasında ölkəmizə qarşı ərazi iddiasının olduğunu bilə-bilə maddəni dəyişdirmək istəmir, əvəzində bəhanər uydurur. İndi də guya Azərbaycan Konstitusiyasında Ermənistana qarşı ərazi iddiasının olduğunu bildirirlər. Bu, tam yalandır. Sadəcə olaraq bu, beynəlxalq praktikada, post-münaqişə dövründə destruktiv, praqmatik olmayan tərəflərin istifadə etdiyi ən lüzumsuz məqamdır. Qarşı tərəfin haqlı mövqeyini bilə-bilə heç bir arqumenti omadığı üçün müxtəlif bəhanələr uydurub danışıqlar prosesindən yayınmaları ilə müşahidə olunur. Bu isə Ermənistanın praqmatik olmadığını, sülhün əldə edilməsini istəmədiyini göstərir. Ermənistan təklif edir ki, hansı məqamlar üzərində ilkin razılaşma varsa, digər məqamları kənarda saxlamaqla sülh məhz o məqamların üzərində bağlansın. Bu isə beynəlxalq münasibətlərdə absurddur. Sülh müqaviləsi bütün məqamlar saf-çürük ediləndən sonra bağlanmalıdır. Biz Ermənistanın Azərbaycana qarşı ərazi iddialarını bir kənara qoyub sülh müqaviləsi bağlaya bilmərik. Ermənistan öz öhdəliklərini axıra qədər tam yerinə yetirməlidir. Sülh müqaviləsi Ermənistanın Azərbaycana qarşı ərazi iddiasından tam əl çəkməsi və digər öhdəlikləri, eləcə də Zəngəzur dəhlizinin açılmasından sonra imzalana bilər. Hələlik isə Ermənistan bəhanələr uydurmaqla məşğuldur. Bu, Ermənistana yaxşı heç nə vəd etmir.

> *Seçki məntəqələrinin işğaldan azad olunmuş ərazilərimizdə, eləcə də Xankəndidə qurulması Ermənistan üçün də haqqı tanıması, qəbul etməsi üçün nümunədir*

Ümumiyyətlə, post-münaqişə dövründə gedən proseslər, Ermənistanın təxribatları, erməni siyasətçilərin lüzumsuz bəyanatarı, erməni havadarlarının, xüsusilə Fransa və Avropanın bəzi siyasətçilərinin Ermənistana göndərdiyi silahlar, yardımlar, təxribatlar qəbuledilməzdir və bu, bu ölkə üçün üçün ağır sutuasiyaya səbəb olur. Azərbaycan regionda öz missiyasını yerinə yetirib. Biz xalq, dövlət, lider olaraq bir yerdə öz hədəfimizə çatmışıq. İndi əsas məsələ Ermənistanın üzərinə düşür. Ermənistan regionda və geosiyasi məkanda daha ağır nəticələrlə üzləşmək istəmirsə, Azərbaycanın xoş məramın qəbul edib öz üzərinə düşən öhdəliyi yerinə yetirməlidir. Əks halda, sülh müqaviləsi Azərbaycan üçün əsas hədəf deyil.

Azərbaycan onsuz da öz hədəfinə çatıb və bu yolda uğurla irəliləyir. Burada sülhü istəyən tərəf Ermənistan olmalıdır. Azərbaycan 30 il ərzində diplomatik müzakirələrə, danışıqlara açıq olub və prosesin sülhlə nəticələnməsi üçün 30 il səbrlə gözləyib. Azərbaycanın strateji üstünlüyü, iqtisadi inkişaf xətti, ordunun gücü, siyasi stabilliyi, xalqla liderinin əsas gücüdür ki, biz bunu artıq birlikdə həyata keçirmişik. Bundan sonra bütün məsuliyyət Ermənistanın üzərindədir. Ermənistan Azərbaycanın konstruktiv, praqmatik təkliflərini qəbul edib sülh müqaviləsini imzalayarsa bundan yalnız uda bilər. Məhz seçki məntəqələrinin işğaldan zad olunmuş ərazilərimizdə, eləcə də Xankəndidə qurulması Ermənistan üçün də haqqı tanıması, qəbul etməsi üçün nümunədir.

✍ *Tahirə Qafarlı*

# Gələn ildən "yaşıl subsidiya"lar tətbiq olunacaq

***Azərbaycanda gələn ildən "yaşıl subsidiya"lar tətbiq olunacaq. Belə ki, Aqrar Subsidiya Şurasının qərarına əsasən, gələn ildən müasir suvarma sistemləri tətbiq edilən əkin sahələrinə görə 60 manat məbləğində əlavə əkin subsidiyası veriləcək. Təkrar əkinlərə görə əkin subsidiyası 2025-ci ildən etibarən yalnız suvarılan ərazilərdə aparılan əkinlərə şamil olunacaq. Kənd Təsərrüfatı Nazirliyindən verilən məlumata görə, Azərbaycan Prezidentinin Sərəncamı ilə 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi və 2024-cü il noyabrında Bakıda keçiriləcək BMT-nin İqlim Dəyişiklikləri üzrə 29-cu Tərəflər Konfransının (COP29) çağırışları nəzərə alınaraq, iqlim dəyişikliklərindən təsirlənən kənd təsərrüfatı sektorunda 2025-ci ildən etibarən sudan səmərəli istifadəni və ətraf mühitin qorunmasını dəstəkləmək məqsədilə müasir suvarma sistemləri tətbiq edilən əkin sahələrinə əlavə əkin subsidiyası veriləcək.***



## Aqrar

Həmçinin, 2024-cü il sentyabrın 1-dən 2025-ci il mayın 31-dək salınan, 1 hektara minimum 1 500 tingin əkildiyi tarlaqoruyucu zolaq bitkilərinin hər hektarına görə 1000 manat məbləğində əkin subsidiyası təyin olunub. Bundan əlavə, işğaldan azad edilmiş ərazilərdə müasir suvarma sistemləri tətbiq edilən əkin sahələrində becərilən dənli və dənli paxlalılara görə əkin subsidiyası 400 manat məbləğində müəyyən edilib.

Yeri gəlmişkən, son 5 ildə Kənd Təsərrüfatı Nazirliyinin xətti ilə 38,2 min hektar ərazidə suvarma sistemlərinin qurulmasına 93,3 milyon manat subsidiya ayrılıb. Bütövlükdə isə, 2023-cü ildə Azərbaycanda 1,5 milyon hektarlıq ümumi əkin sahələrinin cəmi 119 min hektarını müasir suvarma sistemi olan sahələr təşkil edib. Bununla yanaşı, 60 min hektarda pivot suvarma sistemləri və damcılı sistem tətbiq olunur. Mütəxəssislərin fikrincə, müasir suvarma sistemi və texnologiyaların tətbiqi ilə Azərbaycanda ərzaqlıq buğda təminatını ərzaq təhlükəsizliyini təmin edəcək səviyyəyə çatdırmaq mümkündür.

Son illər müasir suvarma sistemləri tətbiq edilən təsərrüfatlarda məhsuldarlığın iki dəfəyə yaxın artdığı, sərf edilən suyun isə 2,5 dəfə azaldığı müşahidə edilir. Bunun son dərəcə yaxşı göstərici olduğunu bildirən kənd təsərrüfatı mütəxəssisləri deyirlər ki, hər bir fermer müasir suvarma üsullarının tətbiqi ilə sudan qənaətlə istifadə etməklə fəaliyyətini yüksək səviyyədə qurmalı, su və torpaq resurslarını qorumalıdır. Selləmə suvarmanın torpaqda şoranlaşma yaratmaqla məhsuldarlığın kəskin şəkildə azalmasına səbəb olduğunu vurğulayan mütəxəssislərin fikrincə, ölkədə müasir suvarma sistemlərindən istifadə gücləndirilməlidir.

■ **Mövzu ilə bağlı Liberal İqtisadçılar Mərkəzinin rəhbəri Akif Nəsirli deyib ki, əkin sahələrinin müasir suvarma sistemləri ilə təchiz edilməsi vacib məsələdir:** "Çünki selləmə-suvarma metodu ilə suvarılan torpaqlarda su yerin təkinə daha çox yayılır və qrunt suları ilə birləşir. Nəticədə zərərli duzları yerin münbit qatına qaldırır, bu da şoranlaşmaya səbəb olur. Müasir metodlarla suvarma bunu aradan qaldırır, nəticə etibarilə məhsuldarlığın aşağı düşməsinin qarşısı alınır. Suvarma müasir metodlarla həyata keçirildikdə sahələrin suya tələbatı 8-10 dəfə aşağı düşür, yəni daha az həcmdə su ilə sahələri tamamilə suvarmaq mümkün olur, suya qənaət edilir. Digər ərazilərdə təsərrüfatla məşğul olan fermerlərə də su çatır".

> “
>
> *Hazırda cəmi 38 min hektar ərazidə müasir suvarma metodları tətbiq edilir*
>
> *Bir sahəyə 10 ton su lazımdırsa, ənənəvi selləmə üsulla suvarılmada həmin sahəyə təxminən 100 ton su buraxılır*

Ekspertin sözlərinə görə, hazırda cəmi 38 min hektar ərazidə müasir suvarma metodları tətbiq edilir: "Halbuki ölkədə suvarılan torpaqların həcmi 400-500 min hektardır. Üstəlik, 1,5 milyon hektar əlavə torpaq sahəsi var ki, onların bir hissəsində dəmyə məhsullar əkilir, bir hissəsində isə ümumiyyətlə əkilmir. Müasir suvarma metodlarının daha bir üstünlüyü də ondan ibarətdir ki, burada artıq relyef amili müəyyən qədər aradan qalxır. Suyun çatmadığı yamacları damcı üsulu ilə suvarmaq mümkün olur. 200-250 min hektar ərazi müasir suvarma metodları ilə suvarılsa bu sistem öz bəhrəsini verəcək".

■ **Məsələ ilə bağlı aqrar sahə üzrə ekspert Mircavid Həsənov bildirib ki, dövlətin subsidiya siyasəti müsbət və effektivdir:** "Subsidiya dövlət büdcəsinin vəsaiti hesabına kənd təsərrüfatı məhsullarının istehsalçılarına əvəzsiz verilən maliyyə vəsaitidir və subsidiyaların verilməsi effektivdir. Başqa sözlə, subsidiyaların verilməsi kənd təsərrüfatının inkişafına dəstək verir. Dövlət hansı kənd təsərrüfatı məhsullarının inkişafında maraqlıdırsa, həmin məhsullar üçün subsidiyanın məbləğini artırmağa çalışır".

Ekspertin fikrincə, fermerlər əsasən tez məhsul verən bitkilər becərməkdə maraqlıdırlar: "Bu gün fermerlər nar, zeytun kimi gec məhsul verən bitkiləri əkməyə maraqlı deyillər. Onlar əsasən tez məhsul verən bitkilər əkməyə həvəs göstərirlər. Əksəriyyət tez məhsul verən bitkilər becərdiyinə görə, bazarda həddindən çox bu məhsullar artır və bu zaman qiymət aşağı düşür. Ona görə də dövlət bu məsələni tənzimləməyə çalışır və gec məhsul verən bitkilərə marağı artırmaq üçün birdəfəlik subsidiyalar verir. Digər tərəfdən, hansı məhsullara tələbat daha çoxdursa, həmin istiqamətdə subsidiyaların məbləği artırılır. Amma subsidiya o demək deyil ki, dövlət fermerin çəkdiyi bütün xərci qarşılamalıdır. Bu, sadəcə bir köməkdir. Məsələn, buğda əkininə görə 1 hektara 220 manat subsidiya verilir. Amma 1 hektar buğda əkini üçün ən azı 600 manat pul lazımdır. Subsidiya xərcləri qismən kompensasiya etmək üçündür. Lakin subsidiyanın məbləği nə qədər çox olsa, bir o qədər yaxşıdır. Bəzi dövlətlərdə isə ümumiyyətlə subsidiya sistemi yoxdur". Damcı suvarma sistemi ilə təmin olunmuş bağların üstünlüyündən danışan ekspert bildirib ki, bu məsələdə ilk olaraq suya qənaət edilir: "Məsələn, bir sahəyə 10 ton su lazımdırsa, ənənəvi selləmə üsulla suvarılmada həmin sahəyə təxminən 100 ton su buraxılır. Amma damcı suvarma sistemi ilə həmin sahəyə 11-12 ton su buraxılması kifayət edir. İkincisi, damcı suvarma sistemi ilə bitkini istədiyiniz kimi qidalandıra bilirsiz. Ona görə də intensiv bağlarla ənənəvi bağlar arasında məhsuldarlıqda çox böyük fərq var".

✍ ***Sevinc***



# Azərbaycan Türkiyənin enerji təhlükəsizliyində mühüm rol oynayır

◂ əvvəli 3-cü səhifədə

Əlbəttə, həmin maliyyə dəstəkləri alınarsa və uzunmüddətli kreditlər təmin olunarsa, onların iqtisadiyyata yatırılması gələcək perspektivdə faydalı ola bilər. Həmin maliyyə və kredit vəsaitlərinin xərclənməsinin tənzimlənməsi məsələsinə də xüsusi diqqət yerimək lazımdır. Yəni, əsas xərc çəkiləcək sahələri müəyyən etmək gərəkdir. Həm də ilk növbədə onu nəzərə almaq lazımdır ki, hazırda Türkiyədə milli valyutanın, yəni lirənin dəyər itirməsi problemi var. Ona görə də öncə maliyyə dəstəyinə ehtiyac var. İlkin mərhələdə həmin maliyyə vəsaitinin Avropadan təmin olunması istiqamətində işlər aparılır. Yəni ölkənin nə qədər uzun müddət üçün təmin olunmuş maliyyə ehtiyatı olarsa, milli pulun dəyərinin yüksəlməsi təmin ediləcək, ondan sonra tədricən iqtisadiyyatın digər sahələrində inkişafa nail olmaq mümkündür.

Xəzinə və maliyyə nazirinin öz vəzifəsinin öhdəsindən gələ biləcəyi Avropa təşkilatlarının, xüsusən beynəlxalq maliyyə təşkilatlarının Türkiyəyə ayıracağı maliyyə vəsaitlərinin, uzunmüddətli kreditlərin nə vaxt təmin ediləcəyindən, həcmindən asılıdır. Əgər həmin vəsaitlər yüngül şərtlərlə və uzun ümddət üçün təmin olunarsa, gələcəkdə ölkə iqtisadiyyatının inkişafına gətirib çıxara bilər...

***- Türkiyədəki iqtisadi böhranların tarixini də araşdırmısınız. Hazırda ölkədəki böhran daha çox hansı dövrü xatırladır?***

- Türkiyə zaman-zaman iqtisadi böhranlar yaşayıb. Xüsusən də dünya iqtisadiyyatında baş verən böhranlar qardaş ölkənin də iqtisadiyyatına təsir göstərib. Məsələn, XX əsrin 70-ci illərində neftin qiymətinin qalxmasıyla maliyyə böhranları olub. Türkiyə ərazisində neft-qaz ehtiyatlarının olmaması da Yaxın Şərqdəki neft böhranının ölkəyə güclü təsir göstərməsinə şərait yaradıb. 90-cı illərdə ölkədə həm siyasi vəziyyətin gərginliyi ilə bağlı böhranlar, həm də SSRİ-nin süqutuyla bağlı yaranmış böhranlar baş qaldırıb. Bundan əlavə, 1999-cu ildə dünyada baş verən iqtisadi proseslərlə bağlı deyil, Türkiyənin özündə baş vermiş və böyük miqyaslı dağıntılara, itkilərə gətirib çıxarmış təbii fəlakət- zəlzələ ilə bağlı da iqtisadi böhran yaranıb və bu sonrakı illərdə də öz təsirini göstərməkdə davam edib. 2001-2002-ci illərdəki maliyyə böhranları isə həm siyasi durumla, həm də ölkənin düşdüyü çətin vəziyyətlə əlaqədar olub. 2008-ci ildə planetdəki ümumi maliyyə böhranı da həmin dövrdə Türkiyədə iqtisadiyyatın xeyli dayanıqlı olmasına rəğmən sosial və maliyyə durumuna öz təsirini göstərmişdi. 2023-cü ildə qardaş ölkədə baş vermiş növbəti dəhşətli zəlzələ də daha genişmiqyaslı dağıntı və itkilərə səbəb olduğundan iqtisadi, sosial və maliyyə durumunun pisləşməsində öz rolunu göstərib və bu da ölkədəki böhranın daha da dərinləşməsinə gətirib çıxarıb...

***- Türkiyə iqtisadiyyatı, əsasən, hansı ölkələrin iqtisadiyyatı ilə bağlıdır - Qərbin, yoxsa Rusiyanın, yaxud "qlobal Cənub" deyilən ölkələrin - Çinin, Hindistanın və s.***

- Hər hansı bir ölkənin iqtisadi durumu belədir ki, onu yalnız bir regiondan, yaxud sahədən asılı vəziyyətə gətirməklə bohranlarla nəticələnə bilər. Əslində, iqtisadiyyat şaxələndirilmiş olmalıdır. İqtisadiyyatın konkret bir istiqamət və fəaliyyətə yönəltməklə tənzimlənməsi adətən real görünmür. Ölkənin həm iqtisadiyyatının özü struktur baxımından, həm də müxtəlif ölkələrlə əlaqələr baxımından da şaxələndirilmiş olmalıdır. Yəni hansısa bir qrup dövlətlərlə iqtisadi əlaqələri gücləndirib, digər qrup dövlətlərlə əlaqə saxlamamaq iqtisadiyyatın dayanıqlılığını poza bilər. Ona görə də Türkiyənin Qərb, Şərq, Yaxın Şərq ölkələri ilə iqtisadi əlaqələrin, xüsusən də yaxın ölkələrlə ticarət əlaqələrinin qurulması və genişləndirilməsi ölkənin iqtisadiyyatını gücləndirən amillərdəndir. Türkiyə iqtisadiyyatı Avropadan maliyyə dəstəyi almaqla müəyyən səviyyəyə gəlib çatıb. Nəzərə alaq ki, bu ölkənin iqtisadiyyatı Rusiya və İranın, Yaxın Şərqin və eyni zamanda Azərbaycanın neft və yanacaq məhsullarından asılıdır.

Yəni birtərəfli olaraq Qərblə iqtisadi əlaqələri gücləndirib, məsələn, yaxın çevrədəki qonşu ölkələrlə əlaqələri pozmaq iqtisadiyyata mənfi təsir göstərən amillərdəndir. Rusiya Türkiyənin əsas ticarət partnyorlarından biridir. Məsələn, həmin ölkəyə böyük həcmdə meyvə-tərəvəz ixrac edilir. Rusiya ilə münasibətlərin korlanması və həmin bazarın itirilməsi yaxın və uzaq perspektivdə Türkiyə iqtisadiyyatına böyük mənfi təsir göstərə bilər. Ona görə də Rusiya ilə əlaqələrin qorunub-saxlanılması vacibdir. Eyni zamanda, Qərb ölkələri ilə də əlaqələr elə istiqamətdə qurulmalıdır ki, onlardan alınan maliyyə yardımları, uzunmüddətli kreditlər, bank əməliyyatlarının həyata keçirilməsi ölkə iqtisadiyyatına müsbət təsir göstərsin.

✍ ***Sultan Laçın***




■ **Avqustun 1-i vəziyyətinə ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin sayı 1759,0 min nəfər olub. Dövlət Statistika Komitəsindən (DSK) verilən məlumata görə, onlardan 881,7 min nəfəri iqtisadiyyatın dövlət sektorunda, 877,3 min nəfəri isə qeyri-dövlət sektorunda fəaliyyət göstərib.**

Muzdla işləyənlərin 18,8 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 18,3 faizi təhsil, 12,8 faizi sənaye, 8,3 faizi əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 7,1 faizi tikinti və iqtisadiyyatın digər sahələrində məşğul olublar. 2024-cü ilin yanvar-iyul aylarında ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı əvvəlki ilin müvafiq dövrünə nisbətən 8,3 faiz artaraq 1002,4 manat olub.



■ **Qazaxıstanın milli nüvə şirkəti "Kazatomprom" Rusiyanın Ukrayna ilə münaqişəsi nəticəsində tətbiq etdiyi sanksiyalara görə Qərb ölkələrinə uran tədarük etməkdə çətinliklə üzləşib.**

"Financial Times"ın verdiyi məlumata görə, bunu "Kazatomprom"un İdarə Heyətinin sədri Meirjan Yusupov bildirib. Onun sözlərinə görə, Ukraynadakı münaqişə ticarət yollarına təzyiqi artırır ki, bu da Qərbə ixracın davam etdirilməsinə maneələr yaradır. Moskva və Pekinin təsiri artmaqdadır və şirkət üçün Asiya tərəfdaşları ilə əməkdaşlıq etmək daha da asanlaşır. Vurğulanır ki, Kazatomprom Xəzər dənizi, Azərbaycan, Gürcüstan və Qara dəniz vasitəsilə alternativ marşrutdan istifadənin genişləndirilməsi imkanını nəzərdən keçirir, lakin bu, nəqliyyat xərclərini artıracaq.



■ **2024-cü ilin yanvar-avqust aylarında ölkədə 80 milyard 960,3 milyon manatlıq və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 4,3 faiz çox ümumi daxili məhsul istehsal olunub. Bu barədə Dövlət Statistika Komitəsinin məlumatında bildirilir.**

Məlumata görə, iqtisadiyyatın neft-qaz sektorunda əlavə dəyər 0,2 faiz, qeyri neft-qaz sektorunda isə 7,0 faiz artıb. ÜDM istehsalının 37,9 faizi sənaye, 9,7 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 7,0 faizi nəqliyyat və anbar təsərrüfatı, 6,1 faizi tikinti, 6,0 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 2,5 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 1,8 faizi informasiya və rabitə sahələrinin, 18,9 isə faizi digər sahələrin payına düşüb, məhsula və idxala xalis vergilər ÜDM-in 10,1 faizini təşkil edib.




■ **BRICS+ ölkələrinin iqtisadiyyatlarının həcmi 2045-ci ildən sonra böyük yeddilər (G7) iqtisadiyyatını ötəcək.**

Bu barədə "The Economist Group"un araşdırma və təhlil bölməsi olan "Economist Intelligence Unit"in qlobal iqtisadiyyatla bağlı proqnozunda bildirilib. Qeyd edilib ki, sözügedən iqtisadiyyatlar arasında boşluq getdikcə azalacaq. Məsələn, 2020-ci ildə BRICS+ ölkələrinin iqtisadiyyatlarının həcmi 20 trilyon dollar, G7 ölkələrinin iqtisadiyyatlarının cəmi 40 trilyon dollar təşkil edib. EIU-nun proqnozuna görə, 2025-ci ildə BRICS+ iqtisadiyyatı 30 trilyon dolları, G7 ölkələrində iqtisadiyyatı isə 50 trilyon dolları ötəcək. 2030-cu ildə bu rəqəm müvafiq olaraq 40 və 60 trilyon dollar təşkil edəcək.



■ **Bu ilin yanvar-iyul aylarında Azərbaycanın hüquqi və fiziki şəxsləri dünyanın 169 ölkəsindəki tərəfdaşları ilə ticarət əməliyyatları həyata keçirib, 115 ölkəyə məhsul ixrac olunub, 157 ölkədən idxal olunub. 2024-cü ilin yanvar-iyul aylarında ölkənin xarici ticarət dövriyyəsi 26239,4 milyon ABŞ dolları təşkil edib.**

Ölkənin xarici ticarət dövriyyəsinin 23,1 faizi İtaliya, 13,5 faizi Türkiyə, 9,6 faizi Rusiya, 7,3 faizi Çin, 4,3 faizi İsrail, 3,2 faizi Almaniya, 2,7 faizi ABŞ, 2,6 faizi Hindistan, 2,4 faizi Çexiya, 2,2 faizi Avstraliya, hər biri 2,0 faiz olmaqla Xorvatiya və Birləşmiş Krallıq, hər biri 1,5 faiz olmaqla Portuqaliya və Yunanıstan, hər biri 1,3 faiz olmaqla Gürcüstan, Bolqarıstan və İran, 1,2 faizi Rumıniya, hər biri 1,0 faiz olmaqla Ukrayna, Tailand və Türkmənistan, hər biri 0,9 faiz olmaqla Belarus və Koreya, 12,2 faizi isə digər ölkələr ilə aparılmış ticarət əməliyyatlarının payına düşüb.



■ **Bu ilin yanvar-avqust aylarında Azərbaycanda sənaye müəssisələri və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən 42,4 milyard manatlıq sənaye məhsulu istehsal edilib.**

Dövlət Statistika Komitəsindən verilən məlumata görə, 2023-cü ilin müvafiq dövrü ilə müqayisədə neft-qaz sektorunda məhsul istehsalı eyni səviyyədə qalıb, qeyri neft-qaz sektorunda isə 7,8% artıb. Məlumata görə, sənaye məhsulunun 64,4%-i mədənçıxarma sektorunda, 29,9%-i emal sektorunda, 4,8%-i elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda, 0,9%-i isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda istehsal olunub. "Mədənçıxarma sektorunda əmtəəlik neft hasilatı 4,4% azalıb, əmtəəlik qaz hasilatı isə 4,1% artıb", - məlumatda qeyd olunur.

# Sahibkarla sakinləri üz-üzə qoyan məqam

***Bu gün paytaxtın bir çox ərazilərində yerləşən köhnə tikililər sökülür. Müşahidələr göstərir ki, bu binalar sökülərkən sakinlərlə söküntünü aparan şirkət arasında əsas mübahisə tikililərə əlavə edilən artırmalarla bağlı yaranır. Sakinlər həmin artırmalara kompensasiya tələb etsələr də, əksər hallarda söküntünü aparan şirkət bununla razılaşmır.***



## Problem

Bəs, görəsən, bu məsələ necə tənzimlənməlidir?

■ **Mövzu ilə bağlı əmlak məsələləri üzrə ekspert Elnur Fərzəliyev bildirib ki, bu gün paytaxtda söküntü işləri 2 formada aparılır:**

"Bir, dövlət tərəfindən, bir də özəl şirkətlər tərəfindən həyata keçirilir. Torpaqların dövlət ehtiyacları üçün satın alınması zamanı hər hansı yaşayış binasının, qeyri-yaşayış obyektinin sökülməsi, sakinlərin köçürülməsi zərurəti yarandıqda qiymətləndirmə qanuna müvafiq şəkildə aparılır və sakinlərə kompensasiya ödənilir. Dövlət satınalmaları haqqında qanuna görə qiymətləndirmə bazar qiymətləri il aparılır. Sakinlərə təyin olunan kompensasiyaya, üstəlik, 20 faiz də əlavə kompensasiya ödənilir. Eyni zamanda, köhnə mənzillərində artırmalar etmiş mənzil sahiblərinin həmin artırmalar üzərində istifadə hüququ var. Əslində, köhnə tikili binalara əlavə artırmaların olunması qadağan olunmalıdır. Köhnə tikili binaların əksəriyyəti artıq istismar müddətini bitirib və bir qismi qəzalı vəziyyətdədir. Onlara olunan hansısa konstruksiya dəyişikliyi tikilini daha da qəzalı vəziyyətə gətirib çıxarır. Əksər binalarda vaxtında çox böyük artırmalar olub. Vətəndaşlara bununla bağlı rəsmi formada hər hansı icazə verilməsə də, qeyri-qanuni olaraq hansısa icazələr verilib ki, onlar da bunu tikib. Belə olan halda əmlak sahibinin istifadə hüququ yaranıb".

Ekspertin fikrincə, plana düşmə və söküntü zamanı artırmalar da hesaba alınmalıdır: "Biz bu gün sökülməkdə olan ərazilərə baxsaq, tikinti şirkətləri əmlakın çıxarış olmasa belə, sakinləri nəzərə alıb evlə təmin edir. Təbii ki, hər hansı bir şirkət köhnə binanı sökmədən əvvəl orada monitorinq aparır və mənzillərin sayını, əlavə artırmaları və qeyri-yaşayış obyektlərinin hesabatını çıxarır. Daha sonra bununla bağlı müvafiq icazəni alır və işə başlayır. Vətəndaş hər hansısa artırma edibsə və tikinti işi aparıbsa, təbii olaraq ora müəyyən qədər xərc çəkib. Orada yaşadığından istifadə hüququ formalaşdığına görə onun bu artırması da nəzərə alınmalıdır".

■ **Evlərin və ya mənzillərin qarşısında icazəsiz tikililərin taleyinə aydınlıq gətirən vəkil Qumru Eyvazova qeyd edib ki, qanunvericilik bu məsələdə müəyyən məhdudiyyətlər qoyur:**

"Buna baxmayaraq, hər bir tikinti şirkəti sakinlərlə ilk görüşəndə, qanunsuz tikiliyə dair müvafiq bir məbləğin müəyyən olunması və ona uyğun ödənilməsini təklif edir. Əgər sakin razı olmursa, o zaman tikinti şirkəti məhkəməyə müraciət etmək məcburiyyətində qalır, bu halda isə, tikinti şirkəti tərəfindən ilkin olaraq təklif olunan məbləğdən qat-qat az məbləği məhkəmə qərarı əsasında sakin əldə edir, çünki qanunvericilikdə özbaşına tikiliyə dair ödənişin edilməsi nəzərə alınmamış, sadəcə ədalətli kompensasiyanın ödənilməsi 23 iyun 2021-ci il tarixli Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinin Plenumunun qərarında qeyd edilmişdir. Mülki Məcəllədə yer alan 180-cı maddədə deyilir ki, tikinti məqsədləri üçün ayrılmayan torpaq sahəsində və ya buna lazımi icazələr almadan və ya şəhərsalma və tikinti normalarını və qaydalarını ciddi surətdə pozmaqla tikilmiş yaşayış evi, digər tikili, qurğu və ya başqa daşınmaz əmlak özbaşına tikinti sayılır. Özbaşına tikinti aparmış şəxs ona mülkiyyət hüququ əldə etmir. Onun tikintiyə dair sərəncam vermək - onu satmaq, bağışlamaq, icarəyə vermək, digər əqdlər bağlamaq ixtiyarı yoxdur. Özbaşına tikintiyə mülkiyyət hüququ məhkəmə tərəfindən o şəxs üçün tanına bilər ki, tikinti aparılmış torpaq sahəsi onun mülkiyyətində olsun. Əgər tikintinin saxlanması digər şəxslərin hüquqlarını və qanunla qorunan mənafelərini pozursa və ya fiziki şəxslərin həyatı və sağlamlığı üçün təhlükə yaradırsa, göstərilən şəxsin özbaşına tikintiyə mülkiyyət hüququ tanına bilməz. Tikinti məqsədləri üçün ayrılmayan torpaq sahəsində və ya buna lazımi icazələr almadan və ya şəhərsalma və tikinti normalarını və qaydalarını ciddi surətdə pozmaqla tikilmiş bina və qurğular müvafiq icra hakimiyyəti orqanlarının və ya maraqlı tərəfin müraciəti üzrə qəbul edilmiş məhkəmənin qərarı əsasında sökülə bilər. Beləliklə, qanunverici özbaşına tikililərə dair hüquqi tənzimləmə qaydalarını təsbit edərək onun üzərində mülkiyyət hüququnun yaranması şərtlərini müəyyən etmişdir.

Bunlara tikinti aparılan torpaq sahəsinin tikən şəxsin mülkiyyətində olması, tikilinin saxlanılmasının digər şəxslərin hüquq və qanunla qorunan maraqlarını pozmaması və ətrafdakıların həyat və sağlamlığı üçün təhlükə yaratmamasıdır. Bu şərtlərdən birinin mövcud olmaması məhkəmələr tərəfindən özbaşına tikili üzərində mülkiyyət hüququnun tanınmasını istisna edir. Göstərilən şərtlər mövcud olarsa, məhkəmə özbaşına tikili üzərində mülkiyyət hüququnu tanıya bilər və belə tanıma Mülki Məcəllənin 139-1.1.4-cü maddəsinə uyğun olaraq, daşınmaz əmlak üzərində hüquqların dövlət qeydiyyatı üçün əsası təşkil edir".

> "
> *Planadüşmə və söküntü zamanı artırmalar da hesaba alınmalıdır*
>
> *Qanunvericilik bu məsələdə müəyyən məhdudiyyətlər qoyur*

✍ **Sevinc**

# Damazlıq heyvanlar yoxa çıxıb

**Hesablama Palatası damazlıq heyvandarlıq sahəsində nöqsanlar aşkar edib. Belə ki, Palatanın 2024-cü il üzrə İş planına uyğun olaraq 2021-2023-cü illər əhatə olunmaqla Damazlıq heyvandarlıq sahəsinə dövlət dəstəyinin səmərəliliyinin və nəticəliliyinin qiymətləndirilməsinin auditi aparılıb.**



Hesablama Palatasından verilən məlumatda qeyd edilib ki, dövlət dəstəyi mexanizminin şərtlərində ölkədaxili tələbata adekvat ətlik və ya südlük və ya ətlik-südlük fəaliyyət istiqamətləri üzrə differensiallaşdırılmaqla heyvanların faydalılığını səciyyələndirən konkret meyarların müəyyənləşdirilməməsi şəraitində damazlıq heyvanlara xas olan məhsuldarlıq və təkrar istehsala yararlılıq xüsusiyyətlərinə malik olmayan azyaşlı heyvanların dəyərinin güzəştli maliyyələşdirilməsi hallarının mövcudluğu daxili nəzarət qaydasında müvafiq risklərin dəyərləndirilməməsini və zəruri məhdudiyyətlərin tətbiq edilməməsini göstərib.

Cari auditlə müvafiq dəyərinin 27,5 min manat güzəşt məbləği maliyyələşdirilmiş 8 damazlıq heyvanın maliyyələşdirilmə qərarlarının qəbul edildiyi tarixlərinə Aqrar Sığorta Fondunun məlumatlarına əsasən öldüyü, 5762 baş damazlıq heyvanlara görə sənədləşdirilmiş ölkədaxili satış (müqavilə) qiymətinin idxal gömrük dəyərinə nisbətinin -19,7%-dən 4,9%-dək olan intervalda dəyişərək təchizatçı hüquqi şəxslərin kommersiya maraqlarının rəsmən təmin olunmaması müqabilində yaranan risklər araşdırılmadan 10,2 mln. manat güzəşt məbləğinin maliyyələşdirildiyi, eləcə də auditin gedişatında aparılmasına nail olunmuş monitorinqlərin nəticələri ilə maliyyələşdirilmiş 5,1 mln. manat güzəşt məbləğinin predmeti olan 4456 baş damazlıq heyvanların alıcı şəxslərin təsərrüfatlarında mövcud olmadığı müəyyən edilib.

Auditlə toplanmış sübutlar, o cümlədən ilkin damazlıqdan başlayaraq damazlıq təsərrüfatlarına göstərilən dövlət dəstəyinin monitorinqi proseslərinədək olan mərhələlərdə iştirak edən bütün tabeli qurumların fəaliyyətinin vahid indikativ funksionallıq baxımından səmərəli koordinasiya edilmədiyini, attestasiyadan keçirilən damazlıq heyvandarlıq təsərrüfatları üzrə damazlıq heyvanların identifikasiyası və digər zəruri rekvizitlərinin elektronlaşdırılmadığını, dövlət dəstəyi mexanizmlərinin zəruri parametrlərinin tam olaraq elektronlaşdırılmaqla əlaqələndirilməsinin təmin edilmədiyini göstərib.

Hüquqi aktlarda damazlıq təsərrüfatları üçün hər bir cins üzrə seleksiya-damazlıq proqramlarına uyğun fəaliyyət göstərmələri əsas şərt kimi müəyyənləşdirildiyi halda attestasiya və uçota alınma prosedurunu müşayiət edən müvafiq sənədləşmələrdə damazlıq heyvandarlıq təsərrüfatlarının biznes-planı mahiyyəti daşıyan həmin proqramların texniki-iqtisadi əsaslandırmalarının əsaslılığı, eyni zamanda, sonrakı nəzarət qaydasında monitorinqlərlə təsərrüfatların faktiki fəaliyyətinin proqramlara uyğunluğu araşdırılmamışdır ki, bu da attestasiya prosesinin səmərəli təşkil edilməməsinin sübutlarındandır.

Ölkədəki mayalana biləcək iribuynuzlu heyvanların çox az bir hissəsinin (14,6-15,8 faizinin) süni mayalanmaya cəlb edildiyi, süni mayalanma ilə doğulan buzovların sayının ölkədəki mayalana bilən müvafiq heyvanlara nisbətinin hər 100 iribuynuzlu heyvana qarşı orta hesabla 8,8-ə bərabər olduğu və doğulan buzovların təxminən 50 faizinin erkək olmaqla qısa müddətli bəslənmə dövründən sonra ət istehsalı üçün kəsimə getdiyi şəraitdə süni mayalanmanın faktiki əhatəliliyi ilə ölkə üzrə heyvandarlıqda cins tərkibinin yaxşılaşdırılması (optimallaşdırılması) üçün 20 ildən çox müddət tələb olunur ki, bu da mövcud süni mayalanma işinin (mexanizminin) bir o qədər də səmərəli və nəticəli olmadığını deməyə əsas verib.

■ **Palatanın damazlıq heyvandarlıq sahəsində aşkarladığı nöqsanları şərh edən Liberal İqtisadçılar Mərkəzinin rəhbəri Akif Nəsirli bildirib ki, bir müddət əvvəl Azərbaycana fantastik qiymətlərə iribuynuzlu heyvanlar alıb gətirirdilər:** "O heyvanların gətirilməsi üçün vəsait ayrılıb. Sənədlərdə yazılıb ki, bu heyvanlar bahalı damazlıq heyvanlardır. Məsələn, 100 baş inək gətirmək lazımdır, onlar 20 baş gətiriblər. Burada 80 baş inəyin pulu isə ortadan yox olub. Ona görə də həmin heyvanlar təsərrüfatlarda yoxdur. Yaxud, bir hissəsini doğrudan da gətiriblər, amma tələf olub. Tələf olanda onun hesabatı verilməli, aktı yazılmalıdır ki, hansı səbəbdən tələf olub. Çünki bu layihədir, risklər də nəzərə alınır. Heyvanların xəstələnmə ehtimalı da nəzərə alınır və ona da vəsait ayrılır. Bundan başqa, iqlim dəyişiklikləri ilə bağlı da risklər yarana bilərdi. Həmin heyvanlarda narahatlıqlar baş verərsə, baytarlıq tədbirləri görülməli idi. Həmin baytarlıq tədbirləri də görülmədiyinə görə gətirilən heyvanların böyük əksəriyyəti tələf olub. Yəni o baytarlıq tədbirlərinə ayrılan vəsaitin hara xərclənməsi belə müəmmalıdır. Ona görə həmin heyvanlar indi təsərrüfatlarda yoxdur. Bütün bunların mütləq hesabatı aparılmalı idi".

> "
> *Həmin baytarlıq tədbirləri görülmədiyinə görə, heyvanların böyük əksəriyyəti tələf olub*

✍ **Sevinc**



# Hərbçilərin ipoteka kreditlərinə dövlət dəstəyi

**İpoteka və Kredit Zəmanət Fondunun nizamnamə kapitalının artırılması nəzərdə tutulur. Bu məsələ Prezident İlham Əliyevin bir neçə gün öncə imzaladığı "Müdafiə Nazirliyinin strukturuna daxil olan Milli Müdafiə Universitetinin tabeliyindəki xüsusi təyinatlı təhsil müəssisələrində təhsil almış hərbi qulluqçulara verilən güzəştli ipoteka kreditlərinə dövlət tərəfindən maliyyə dəstəyi göstərilməsi Qaydası"nın təsdiq edilməsi haqqında fərmanında öz əksini tapıb.**

## Qərar

Fərmana əsasən, Maliyyə Nazirliyi Qaydada nəzərdə tutulmuş hərbi qulluqçulara verilən güzəştli ipoteka kreditinin maliyyələşdirilməsi üçün Fondun nizamnamə kapitalının artırılması üçün müvafiq illərdə dövlət büdcəsindən vəsait ayrılması ilə bağlı tədbirlər görməlidir.

Müdafiə Nazirliyinin strukturuna daxil olan Milli Müdafiə Universitetinin tabeliyindəki xüsusi təyinatlı təhsil müəssisələrində təhsil almış hərbi qulluqçulara verilən güzəştli ipoteka kreditlərinə dövlət tərəfindən maliyyə dəstəyi göstərilməsi Qaydası" "Gənclərin hərbi sahədə təhsil almasının təşviq edilməsi ilə bağlı tədbirlər haqqında" ölkə Prezidentinin 14 dekabr 2023-cü il tarixli fərmanına əsasən hazırlanıb.

Yeni qayda Universitetin tabeliyindəki Heydər Əliyev adına Hərbi İnstitutun bakalavriat səviyyəsində, o cümlədən bakalavriat səviyyəsinin hazırlıq kursunda, Bakı Hərbi Kollecində, Gəncə Hərbi Kollecində və Naxçıvan Hərbi Kollecində təhsil almış hərbi quluqçulara verilən güzəştli ipoteka kreditlərinə dövlət tərəfindən maliyyə dəstəyi göstərilməsinə dair tələbləri və digər təşkilati məsələləri müəyyən edir. Qaydada nəzərdə tutulan hərbi qulluqçulara güzəştli ipoteka kreditinin verilməsi proseduru və şərtləri dövlət başçısının 22 iyun 2016-cı il tarixli fərmanı ilə təsdiq edilmiş "İpoteka və Kredit Zəmanət Fondunun vəsaiti hesabına ipoteka kreditinin, o cümlədən güzəştli ipoteka kreditinin verilməsi Qaydası" ilə müəyyən edilir. Qaydada istifadə olunan anlayışlar İpoteka kreditinin verilməsi Qaydasında müəyyən edilmiş mənaları ifadə edir. Onun müddəaları 2024-2025-ci tədris ilindən başlayaraq dövlətlərarası müqavilə əsasında xarici ölkələrin xüsusi təyinatlı təhsil müəssisələrində təhsil alan və məzun olduqdan sonra Azərbaycan Ordusunda 5 təqvim ili zabit və ya gizir (miçman) kimi həqiqi hərbi xidmət keçən ölkə vətəndaşları olan hərbi qulluqçulara da şamil edilir. 2024-2025-ci tədris ilindən başlayaraq xüsusi təyinatlı təhsil müəssisələrində təhsil alan və məzun olduqdan sonra Azərbaycan Ordusunda 5 təqvim ili zabit və ya gizir (miçman) kimi həqiqi hərbi xidmət keçən hərbi qulluqçulara verilən güzəştli ipoteka kreditlərinə maliyyə dəstəyi göstərilir. Maliyyə dəstəyi güzəştli ipoteka kreditinin verildiyi tarixə ipoteka ilə yüklü edilən yaşayış sahəsinin qiymətinin bir hissəsi və aylıq annuitet ödənişlərinin bir hissəsi üzrə yalnız bir yaşayış sahəsinin satın alınması məqsədilə müddəti azı 15 il olan güzəştli ipoteka kreditləri üzrə göstərilir. Xatırladaq ki, İpoteka və Kredit Zəmanət Fondu ölkə prezidentinin 25 dekabr 2017-ci il tarixli fərmanı ilə, "Azərbaycan İpoteka Fondu" və "Kredit Zəmanət Fondu" ASC-lərin birləşmə formasında yenidən təşkili yolu ilə yaradılıb. Hazırda onun nizamnamə kapitalı 980,7 milyon manatdır.

■ **Məsələ ilə bağlı iqtisadçı-alim Vüqar Bayramov deyib ki, yeni qaydalara əsasən, hərbi qulluqçuların ipoteka kreditlərinə çıxış imkanları genişlənəcək:** "Sənədə əsasən, 2024-2025-ci tədris ilindən başlayaraq xüsusi təyinatlı təhsil müəssisələrində təhsil alan və məzun olduqdan sonra Azərbaycan Ordusunda 5 il zabit və ya gizir (miçman) kimi həqiqi hərbi xidmət keçən hərbi qulluqçulara verilən güzəştli ipoteka kreditlərinə maliyyə dəstəyi veriləcək. Belə ki, güzəştli ipoteka kreditinin verildiyi tarixə ilkin ödəniş və aylıq annuitet ödənişlərinin bir hissəsi üzrə yalnız bir yaşayış sahəsinin satın alınması məqsədilə müddəti azı 15 il olan güzəştli ipoteka kreditləri üzrə maliyyə dəstəyinin göstərilməsi nəzərdə tutulur. Maliyyə dəstəyinin həcminə gəldikdə isə yeni qaydalara əsasən, ilkin ödəniş üçün maliyyə dəstəyi ipoteka kreditinin maksimal məbləğinin 15 faizindən yuxarı olmamaq şərti ilə veriləcək. Annuitet ödənişləri üzrə isə maliyyə dəstəyi belə ödənişlərin 50 faizi həcmində olacaq".

V. Bayramov bildirib ki, hərbi qulluqçular "Elektron ipoteka və kredit zəmanət" sistemi vasitəsi ilə müraciət edə bilərlər: "Maliyyə dəstəyi göstərilməsi üçün Müdafiə Nazirliyinin bu məqsədlə açılmış bank hesabında vəsait saxlanılacaq. Maliyə dəstəyi daha konkret olaraq Müdafiə Nazirliyinin strukturuna daxil olan Milli Müdafiə Universitetinin tabeliyindəki Heydər Əliyev adına Hərbi İnstitutun bakalavriat səviyyəsində, o cümlədən bakalavriat səviyyəsinin hazırlıq kursunda, Bakı Hərbi Kollecində, Gəncə Hərbi Kollecində və Naxçıvan Hərbi Kollecində təhsil almış hərbi qulluqçulara verilən güzəştli ipoteka kreditlərinə veriləcək. Eyni zamanda, bu dəstək 2024-2025-ci tədris ilindən başlayaraq dövlətlərarası müqavilə əsasında xarici ölkələrin xüsusi təyinatlı təhsil müəssisələrində təhsil alan və məzun olduqdan sonra Azərbaycan Ordusunda 5 il zabit və ya gizir (miçman) kimi həqiqi hərbi xidmət keçən Azərbaycan vətəndaşları olan hərbi qulluqçulara da şamil edilir. Azərbaycan Prezidentinin son fərmanı hərbi qulluqçularımızın sosial müdafiəsini gücləndirmək və mənzil təminatını daha da yaxşılaşdırmaqla yanaşı gənclərin hərbi sahədə təhsil almasını təşviq edəcək".

> "
> *Azərbaycan Prezidentinin son fərmanı hərbi qulluqçularımızın sosial müdafiəsini gücləndirmək və mənzil təminatını daha da yaxşılaşdırmaqla yanaşı gənclərin hərbi sahədə təhsil almasını təşviq edəcək*

✍ **Müşfiq**

# Tələbələr nə qədər təqaüd alacaq?

***Yeni tədris ilinin başlaması tələbə təqaüdləri məsələsini yenidən aktuallaşdırıb. Qeyd edək ki, hazırda təhsil müəssisələrində tələbələrə müxtəlif adlı təqaüdlər təyin olunur. Dövlət başçısının ötən il imzaladığı müvafiq fərmana əsasən, ali məktəb tələbələri üçün Prezident təqaüdünün məbləği 2023-cü il yanvarın 1-dən 275 manat müəyyən edilib. Dövlət başçısının digər Fərmanı ilə Dövlət büdcəsinin vəsaiti hesabına doktorantlara, ali təhsil, orta ixtisas və peşə təhsili müəssisələrində, həmçinin Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində təhsil alan tələbələrə verilən təqaüdlərin məbləğləri 2023-cü il yanvarın 1-dən aşağıdakı kimi müəyyən edilib:***

## Təhsil

Doktorantura pilləsi üzrə:
elmlər doktoru hazırlığı üzrə doktorantlara - 400 manat;
fəlsəfə doktoru hazırlığı üzrə doktorantlara - 240 manat.
Ali təhsil müəssisələrində və Azərbaycan Milli Elmlər Akademiyasında:
Magistratura səviyyəsi üzrə:
akademik göstəriciləri 91-100 bal olan tələbələrə - 195 manat;
akademik göstəriciləri 71-100 bal olan tələbələrə - 160 manat;
akademik göstəriciləri 51-100 bal olan tələbələrə - 110 manat;
Bakalavriat səviyyəsi üzrə:
akademik göstəriciləri 91-100 bal olan tələbələrə - 175 manat;
akademik göstəriciləri 71-100 bal olan tələbələrə - 145 manat;
akademik göstəriciləri 51-100 bal olan tələbələrə - 100 manat.
Orta ixtisas təhsili müəssisələrində:
akademik göstəriciləri 91-100 bal olan tələbələrə - 100 manat;
akademik göstəriciləri 71-100 bal olan tələbələrə - 80 manat;
akademik göstəriciləri 51-100 bal olan tələbələrə - 66 manat.
Peşə təhsili müəssisələrində:
akademik göstəriciləri "5" (yüksək texniki peşə təhsili səviyyəsində 91-100 bal) olan tələbələrə - 100 manat;
akademik göstəriciləri "4" və "5" (yüksək texniki peşə təhsili səviyyəsində 71-100 bal) olan tələbələrə - 80 manat;
akademik göstəriciləri "3"-"5" (yüksək texniki peşə təhsili səviyyəsində 51-100 bal) olan tələbələrə - 66 manat.

Bəs, görəsən, bu gün tələbənin aldığı təqaüd onun xərclərini qarşılamağa nə dərəcədə kifayət edir? Təqaüdlərin artırılmasına ehtiyac varmı?

■ **Mövzu ilə bağlı bizimlə fikirlərini bölüşən təhsil eksperti Elçin Əfəndi deyib ki, tələbə təqaüdlərin artırılması Prezidentin səlahiyyətində olan məsələdir:** "Təqaüdlər demək olar ki, 1-2 ildən bir artırılır. Bununla yanaşı, ötən illərlə müqayisədə son dövrlər təhsil müəssisələrində dövlət sifarişli plan yerlərinin sayı əhəmiyyətli dərəcədə artıb.Təkcə bu il dövlət sifarişi hesabına 30 minə yaxın tələbə ali məktəblərə qəbul edilib. Onların təhsil xərci dövlət tərəfindən qarşılanacaq. Bu kimi məqamlar ali təhsil almaq istəyənlər üçün təhsilin əlçatanlığının təmin olunması deməkdir. Amma ümumilikdə tələbə təqaüdlərinin miqdarı azdır. Düzdür, indiki təqaüdləri gündəlik nəqliyyat vasitələrinin istifadəsinə, o cümlədən müvafiq vəsaitlərin alınmasına uyğun hesab etmək olar. Lakin nəzərə almaq lazımdır ki, tələbələr təkcə gündəlik nəqliyyat vasitələrinə və müvafiq vəsaitlərin əldə edilməsinə pul xərcləmirlər, onların əksəriyyəti təhsil almaq üçün kirayədə yaşayırlar. Hesab edirəm ki, qaşıdakı dövr ərzində tələbə təqaüdlərinin artırılması məsələsinə baxıla bilər". Ekspert onu da vurğulayıb ki, hazırda tələbələr yalnız dövlət tərəfindən nəzərdə tutulan təqaüdləri almırlar:

"Eyni zamanda, təhsil müəssisələrində adlı təqaüdlər də var. Məsələn, dövlət başçısı tərəfindən qəbul imtahanlarında yüksək nəticə göstərən 102 tələbəyə Prezident təqaüdü təyin olunur. O cümlədən bəzi universitetlərin özünün təyin etdiyi təqaüdlər var. Məsələn, BDU-da tələbələrə müxtəlif elmlər doktoru, akademiklərin adına təsis edilmiş təqaüdlər verilir. Əgər bir tələbə hər bir təqaüddən faydalanırsa, aylıq təxminən 600-700 manatdan çox təqaüd almaq imkanına malik olur".



■ **Məsələ ilə bağlı təhsil eksperti Kamran Əsədov qeyd edib ki, hazırda Azərbaycanda tələbələrin aldığı təqaüdlər kifayət qədər məhdud maliyyə təminatı olaraq qiymətləndirilir:** "Təqaüdlərin məbləği tələbələrin gündəlik xərclərini və təhsil üçün zəruri olan digər tələbatlarını ödəmək üçün çox vaxt yetərli olmur. Məlumdur ki, Azərbaycan ali təhsil müəssisələrində təqaüdlər ümumilikdə tələbələrin akademik göstəricilərinə əsaslanaraq verilir. 2023-cü ilin məlumatlarına görə, təqaüdlərin məbləği təqribən 85-130 manat arasında dəyişir. Bu məbləğ çox zaman tələbələrin əsas ehtiyaclarını, məsələn, nəqliyyat, yemək və dərs ləvazimatlarını qarşılamaq üçün kifayət etmir. Üstəlik, böyük şəhərlərdə, xüsusilə Bakı kimi yerlərdə yaşayış xərcləri daha yüksək olduğundan, təqaüdlərin məbləği tələbələrin maddi vəziyyətini əhəmiyyətli dərəcədə yaxşılaşdırmır. Məsələn, yalnız nəqliyyat və yemək xərclərini hesablasaq belə, təqaüdün çox az bir hissəsinin bu ehtiyacları qarşıladığı məlum olur. Belə ki, gündəlik nəqliyyat üçün minimum xərclər, xüsusən də şəhər içində, ayda ən azı 30-50 manat təşkil edir, yemək xərcləri isə çox zaman təqaüd məbləğindən artıq olur. Ona görə də təqaüdlərin artırılmasına ciddi ehtiyac var. Başqa sözlə, Azərbaycanın təhsil sistemində tələbələrin daha rahat və keyfiyyətli təhsil ala bilməsi üçün maddi dəstəyin artırılması zəruridir".

Onun fikrincə, təqaüdlərin artırılması bir neçə mühüm məqamda müsbət nəticələrə səbəb ola bilər: "Məsələn, təhsildə fokuslanma: Tələbələrin əsas diqqəti təhsil almağa yönəlir. Maddi çətinliklər səbəbindən əlavə iş axtaran və dərsdən kənar fəaliyyətlərlə məşğul olan tələbələr dərslərdən geri qalır. Sosial bərabərlik: Təqaüdlərin artırılması tələbələrin sosial vəziyyətindən asılı olmayaraq, təhsil imkanlarının bərabər şəkildə təmin edilməsinə kömək edir. Maddi çətinlik çəkən tələbələr təqaüd artırılmadıqda ali təhsilini davam etdirməkdə çətinlik çəkirlər. Təhsil keyfiyyətinin yüksəldilməsi: Təqaüdlər tələbələrin tədris və tədqiqat işlərinə daha çox vaxt ayırmalarına imkan verərək təhsil keyfiyyətinin artmasına səbəb ola bilər. Maliyyə təzyiqləri azaldıqda tələbələr öz bilik və bacarıqlarını inkişaf etdirməyə daha çox vaxt ayıra bilərlər.

*"İndiki təqaüdləri gündəlik nəqliyyat vasitələrinin istifadəsinə, o cümlədən müvafiq vəsaitlərin alınmasına uyğun hesab etmək olar*

*Hazırda Azərbaycanda tələbələrin aldığı təqaüdlər kifayət qədər məhdud maliyyə təminatı olaraq qiymətləndirilir*

Təklif edirəm ki, tələbələrin xərclərinə uyğun olaraq təqaüd məbləği yenidən nəzərdən keçirilməlidir. Müasir iqtisadi şərait nəzərə alınaraq, təqaüdlərin yaşayış və təhsil xərclərini qarşılamaq üçün kifayət edəcək səviyyəyə çatdırılması vacibdir. Eyni zamanda, daha yüksək tədris göstəriciləri olan tələbələrə və müəyyən ixtisaslara üstünlük verən təqaüdlər olmalıdır. Maddi baxımdan daha çətin vəziyyətdə olan tələbələrə də əlavə dəstək göstərilməlidir.Təqaüdlərdən əlavə olaraq, tələbələr üçün güzəştli təhsil kreditləri və ya qrant proqramlarının genişləndirilməsi də tələbələrin maliyyə yükünü azalda bilər. Nəticə olaraq, tələbə təqaüdlərinin mövcud səviyyəsi onların gündəlik ehtiyaclarını tam ödəmək üçün kifayət deyil. Təqaüdlərin artırılması və tələbələrə daha çox maddi dəstək göstərilməsi ali təhsilin keyfiyyətini yüksəltmək və tələbələrin təhsil prosesində daha motivasiyalı olmalarına kömək edəcək".

***Sevinc***

## HƏFTƏ REYTİNQ

### Həftənin TƏLTİFİ



Prezident İlham Əliyev Azərbaycan Milli paralimpiya komandası üzvlərinin təltif edilməsi haqqında Sərəncam imzalayıb. Ölkə başçısı Paris-2024 Yay Paralimpiya Oyunlarında qızıl medal qazanan paraatletlər Lamiyə Vəliyeva və Orxan Aslanovu "Şöhrət" ordeni ilə təltif edib. Qeyd edək ki, idmançıların hər ikisi builki Paralimpiya Oyunlarında bir qızıl və bir gümüş olmaqla ayrılıqda iki medal qazanıblar.

### Həftənin CƏRİMƏLİSİ



Aktyor Taleh Yüzbəyov 18 min manat cərimələnib. Buna onun şəhərin mərkəzində açdığı kafe səbəb olub. Vergi cəriməsinə tuş gələn gənc aktyor, kafeni bağlamaq məcburiyyətində qaldığını, bu iaşə obyekinə görə bir sıra borcları yarandığını instaqram hesabında yazıb.

### Həftənin PİYADASI



Türkiyəli müğənni Serdar Ortaç açıqlaması ilə gündəmə gəlib. O, şəxsi avtomobillərini satdığını deyib. "Avtomobillərimin hamısını satmışam. Ümumiyyətlə avtomobilim yoxdur. Avtomobili sevmirəm. Məni konsertdən konsertə mikroavtobusumla aparırlar. Bir mikroavtobus və velosipedim var", - deyə Serdar sosial şəbəkə hesabındakı açıqlamasında bildirib.

### Həftənin ARZUSU



Gürcüstan Prezidenti Salome Zurabişvili ikinci müddətə ölkə prezidenti seçilmək niyyətində olduğunu bildirib.

O bu barədə Fransanın "Le Figaro" qəzetinə müsahibəsində danışıb. "Gürcüstanın Avropa yoluna qayıtması üçün üzərimə böyük məsuliyyət götürməyə, eləcə də ikinci müddətə namizədliyimi irəli sürməyə hazıram. Təklif etdiyim xartiya işə yarasa, avropalı tərəfdaşlarımızla danışıqlar aparmağa hazıram", - deyə Zurabişvili qeyd edib.

### Həftənin DEBATI



ABŞ-də seçkiöncəsi sabiq Prezident Donald Tramp və hazırkı vitse-prezident Kamala Harris arasında ilk debat keçirilib. Onlar Filadelfiyada üz-üzə gəliblər. Teledebat 1 saat 45 dəqiqə çəkib. Müzakirələr zamanı siyasətçilər iqtisadi vəziyyətdən tutmuş Ukraynadakı münaqişəyə qədər geniş spektrli məsələlərdən danışıblar. Debatın əvvəlində Tramp Harrisi marksist adlandırıb.

### Həftənin ŞƏRTİ



"Ukrayna Silahlı Qüvvələri Rusiya ərazisindən çıxarılmayana qədər Moskva Kiyevlə danışıqlar aparmayacaq". Bunu "Rossiya-24" telekanalına müsahibəsində Rusiya Təhlükəsizlik Şurasının katibi Sergey Şoyqu deyib. "Ukrayna Silahlı Qüvvələrini ərazimizdən çıxarmayana qədər təbii olaraq onlarla heç bir danışıqlar aparmayacağıq", - deyə Şoyqu qeyd edib.

***Azad Əliyev***

# "Nar" təhsilə dəstək göstərərək ən yüksək bal toplayan abituriyentləri mükafatlandırdı

R

**Ən sərfəli mobil operator mövqeyini qoruyan "Nar" sosial layihələrə də dəstəyini davam etdirir. Belə ki, "Nar" 2023-2024-cü tədris ilində ali məktəblərə qəbul imtahanlarında ən yüksək nəticə göstərən ilk on abituriyenti xüsusi hədiyyələrlə təltif edib.**

Modern.az İnformasiya Agentliyinin dəstəyi ilə keçirilən bu layihə çərçivəsində tələbə adını qazananlara operatordan qızıl nömrə, 700 AZN balans və müasir smartfonlar hədiyyə edilib. Mükafatlandırma mərasimində tanınmış dövlət, ictimai-siyasi xadimlər və media nümayəndələri iştirak edərək, ilin ən uğurlu abituriyentlərini təbrik ediblər. "Nar"ın İctimaiyyətlə Əlaqələr və Korporativ Ünsiyyət Departamentinin direktoru Hökümə Kərimova da çıxış edərək gəncləri təbrik edib, onlara gələcəkdə uğurlar arzulayıb və qeyd edib:



"Təhsilə yönəlik layihələrə dəstək olmaq, "Nar" üçün yalnız bir sosial məsuliyyət deyil, eyni zamanda ölkəmizin uğurlu gələcəyinin qurulmasına töhfə vermək deməkdir. Sizin inkişafınız ölkəmizin gələcək uğurlarının təməlini təşkil edir və biz bu yolda sizə dəstək olmağa davam edəcəyik". "Nar"ın artıq səkkiz ildir ki, ənənəvi olaraq, davam etdirdiyi bu təşəbbüs mobil operatorun təhsilə verdiyi önəmini bir daha sübut edir. Operatorun həyata keçirdiyi digər layihələr haqqında ətraflı məlumatı nar.az/layihələr səhifəsindən əldə etmək olar. "Nar" hal-hazırda 2,2 milyon abunəçiyə yüksək keyfiyyətli rabitə xidmətləri göstərməkdədir. "Nar" son 5 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.

## GÜNÜN FOTOSU



**Entoni Blinken Böyük Britaniyanın xarici işlər naziri Devid Lemmi ilə birgə Ukraynanın paytaxtı Kiyevə səfər edib**

# Damazlıq heyvanlar yoxa çıxıb

**Akif Nəsirli,**
Liberal İqtisadçılar Mərkəzinin rəhbəri

Həmin baytarlıq tədbirləri görülmədiyinə görə, heyvanların böyük əksəriyyəti tələf olub.

Səh. 7

## STATİSTİKA



■ **2024-cü ilin yanvar-avqust aylarında əsas kapitala 11 milyard 216,9 milyon manat məbləğində, yaxud əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 1,7% çox investisiya yönəldilib.**

Neft-qaz sektoruna yatırılmış investisiyaların həcmi 2,4 faiz azalmış, qeyri neft-qaz sektoruna yönəldilən investisiyaların həcmi isə 3,9% artıb.



Səh. 7

# Sahibkarla sakinləri üz-üzə qoyan məqam